www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 aprel 2015-ci il Cümə № 87 (6115) Qiymәti 40 qәpik

**Xəbər**

## İŞİD-ə qoşulan 15 yaşlı şəkili terrorçulara yemək bişirirmiş

yazısı səh.13-də

**Gündəm**

### Vicdan məhbusu Tofiq Yaqublunun gənc qızı qürbətdə vəfat etdi



Həbsdə olan başqan müavini hüzndə iştirak etmək üçün bu gün azadlığa buraxılacaq

yazısı səh.3-də

### ABŞ Azərbaycan hökumətinin tənqidlərinə cavab verdi

yazısı səh.5-də

### Kamil Vəli Nərimanoğlu Ərdoğanla görüşündən danışdı

yazısı səh.7-də

### Sərkisyan türk arxivlərini araşdırmağa qarşı çıxdı

yazısı səh.9-da

### Zəlimxan Məmmədli "yaltaqlıq edir" ittihamına cavab verdi

yazısı səh.7-də

### Müsavat başqanının həbsdəki müavininin iddiaları ilə bağlı açıqlama gəldi

yazısı səh.6-da

### Bakıda bank müdirini öldürən şəxs həbs olundu

yazısı səh.5-də

### "Yeni Müsavat"ın müxbiri Strasburqdan yazır...

yazısı səh.12-də

### Məhkəmədə jurnalistə qarşı kobudluq

yazısı səh.6-da

### Suriya qaçqınları Bakıya gəlməyə çalışır

yazısı səh.11-də

### Bakı polisi manyakı axtarır

yazısı səh.15-də

### 10 mayda əfv olmayacaq

yazısı səh.7-də

**MTN-in tutduğu dəstə nazirin adamlarının gizli hesabını ələ keçiribmiş**

# ZİYA MƏMMƏDOVUN QARDAŞLARINI SOYUBLAR-ŞOK FAKTLAR

Loğman və Nəriman Məmmədovlar Beynəlxalq Bankın "Nəqliyyat filialı"nda olan bank hesablarından oğurlanmış pullardan gec xəbər tutublar; zərərçəkənlər siyahısında "Azəryolservis"in vəzifəli şəxsləri də var




yazısı səh.5-də

## Dünyanın gözü Çanaqqala və İrəvanda

24 apreldəki iki törənin bir gerçəyi; erməni təbliğat maşını, işğalçı ölkə öz əsas hədəfinə çata bilmədi; saxta soyqırım məsələsində ABŞ-ın ədalətli münsifliyi "əzabkeş xalq"ın sonuncu ümidini də dəfn etdi

yazısı səh.8-də



### Ermənilər Zakir Həsənovdan qorxduqlarını etiraf etdi

yazısı səh.4-də



### Jurnalistin ölümündə suçlanan həkimə hökm oxundu - 2 il

yazısı səh.10-da



### Polad Bülbüloğluna daha bir ittiham

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 87 (6115) 24 aprel 2015

## İlham Əliyev beynəlxalq mükafata layiq görüldü



**Ankarada Türkiyənin bir çox nüfuzlu jurnalist təşkilatını öz sıralarında birləşdirən Media İxtisas Jurnalistləri Federasiyasının 2014-cü il üçün müəyyən etdiyi mükafatların təqdimatı ilə bağlı mərasim keçirilib.**

Tədbirdə Türkiyə parlamentinin üzvləri, nüfuzlu siyasətçilər, elm adamları, jurnalistlər, qeyri-hökumət təşkilatlarının rəhbərləri, Ankarada akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri iştirak ediblər.

Mərasimdə Azərbaycan prezidenti İlham Əliyev "Beynəlxalq Dostluq və Sülh Mükafatı"na layiq görülüb. Nüfuzlu mükafat ölkənin Ankaradakı səfirliyinin müşaviri Ceyhun Zeynalova təqdim edilib.

Qeyd edilib ki, Azərbaycan iqtisadi sahədə ciddi uğurlar qazanmaqla yanaşı, beynəlxalq strateji tərəfdaşlıqla bağlı yeni sazişlər imzalayaraq, sistemli və düşünülmüş xarici siyasət yürütdüyünü nümayiş etdirir.

Media İxtisas Jurnalistləri Federasiyasının sədri Kənan Macit bildirib ki, müxtəlif sahələr üzrə mükafatların sahibləri nüfuzlu münsiflər heyəti tərəfindən müəyyən edilib.

Xatırladaq ki, "Beynəlxalq Dostluq və Sülh Mükafatı"na layiq görülənlər arasında Qazaxıstan prezidenti Nursultan Nazarbayev və Albaniyanın baş naziri Edi Rama da var.

## 2 nəfər dəm qazından, 1 nəfər isə sirkə turşusundan zəhərləndi

**Azərbaycanda dəm qazından 2 zəhərlənmə hadisəsi qeydə alınıb. AZNEWS.AZ xəbər verir ki, bu haqda məlumatı Daxili İşlər Nazirliyinin mətbuat xidməti yayıb. İlk hadisə Səbayel rayonu ərazisində baş verib. Zərifə Musayeva yaşadığı evində zəhərlənib.**

Samux rayonunda yaşayan Qənimət Hüseynova da öz mənzilində dəm qazından zəhərlənib.

Ağcabədi rayonunda yaşayan Ələkbər İbadov isə sirkə turşusundan zəhərlənib.

Hər 3 şəxs xəstəxanalara yerləşdirilib.

## Kişinyovda "erməni soyqırımı" ləğv olundu

**Kişinyovun "Odeon" kinoteatrında "erməni soyqırımı"na həsr olunmuş "Şram" filminin nümayişi ləğv olunub. Bu barədə oxu.az interfaks-a istinadla xəbər verir. "Nümayişdən bir neçə dəqiqə əvvəl elan olundu ki, arzuolunmaz gərginliyə yol verməmək üçün film nümayiş olunmayacaq", - Moldovada erməni icmasının fəallarından biri Stanislav Vartanyan sosial şəbəkədə yazıb.**

Onun sözlərinə görə, filmin nümayişi çərşənbə günü axşama təyin olunmuşdu.

"Odeon" kinoteatrı Moldovanın Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərir.

## Heydər Əliyev prospekti nə vaxt açılır?

**Heydər Əliyev prospektinin Böyükşor yol qovşağından Heydər Əliyev Mərkəzinə qədər olan hissəsində təmir işlərinin yaxın günlərdə başa çatdırılması nəzərdə tutulub.**

"Qafqazinfo"nun Nəqliyyat Nazirliyi "Azəryolservis" ASC-yə istinadən məlumatına görə, hazırda yolun asfalt-beton örtüyünün üst qatı qaşınaraq yenisi ilə əvəzlənir və səki daşları dəyişdirilir.

Bundan əlavə, zəruri yerlərdə kanalizasiya sistemi qurulur, yeni yağış barmaqlıqları yerləşdirilir, yolun kənarında isə yaşıllıq zonası salınır.

Təmir işləri başa çatandan sonra Heydər Əliyev prospektinin digər bir hissəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Hidrometereoloji Proqnozlar Bürosunun yerləşdiyi binanın yanından metronun "Koroğlu" stansiyasına qədər olan hissə təmir işlərinin aparılması məqsədilə nəqliyyat vasitələri üçün bağlanacaq.


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


**Başsağlığı**

**AXP sədri Pənah Hüseyn Tofiq Yaqubluya və ailə üzvlərinə əzizləri**
**Nərgiz xanımın**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

# BMT-nin baş katibi də erməniləri məyus etdi

**BMT baş katibi Pan Gi Mun hesab edir ki, 1915-ci ildəki faciəvi hadisələrin xatırlanması və unudulmaması bu cür halların təkrarlanmaması üçün kollektiv səyləri gücləndirməlidir.**



Musavat.com-un xarici qaynağa istinadən verdiyi xəbərə görə, bu barədə aprelin 23-dəki brifinq zamanı onun mətbuat katibi Stefan Cüjarrik bildirib.

Onun sözlərinə görə, BMT gələcəkdə bu cür faciələrin qarşısını almaq üçün beynəlxalq birliyin potensialının gücləndirilməsi missiyasına sadiqdir.

BMT baş katibi həmçinin Türkiyə baş naziri Əhməd Davudoğlunun 24 aprellə bağlı verdiyi bəyanatı "uzaqgörənlik" adlandırıb və Türkiyə və Ermənistanı 2009-cu ildə imzalanmış Sürix protokollarına uyğun surətdə münasibətləri normallaşdırmaq üçün səylər göstərməyə çağırıb.


KAPITAL BANK


## "Kapitalbank"ın vəzifəli şəxsləri ifşa olundu

**"Kapitalbank" ASC-nin "İmişli", "Şabran və "Biləsuvar" filiallarının vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə qeyd olunan bankdan daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Virtualaz.org Baş Prokurorluğun mətbuat xidmətinə istinadən bildirir ki, araşdırmalar zamanı bankın "İmişli" filialının kredit şöbəsinin sabiq əməkdaşları Zaur Əzizov, Maqsud Yaqubov və baş xəzinədar Seymur Qasımovun xidməti vəzifələrinin icrası ilə əlaqədar qulluq səlahiyyətlərindən qulluq mənafelərinə qəsdən zidd olaraq saxta kredit müqavilələrinin rəsmiləşdirilməsi, kredit məbləğlərinin müştərilərə tam həcmdə verilməməsi, kreditlərin ödənişə qəsdən yönəldilməməsi, bankın "Şabran" filialının sabiq mütəxəssisi Ceyran Orucovanın vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə müştərilərin şəxsiyyətini təsdiq edən sənədləri müvafiq qaydada yoxlamadan 295 rayon sakininə 305 ədəd ödəniş kartı hazırlatması, bankın "Biləsuvar" filialının sabiq baş xəzinədarı Nəriman Cəfərov və əməliyyatçısı Pərviz Əzizovun qabaqcadan əlbir olaraq vəfat etmiş rayon sakininin adına olan plastik kartdan pul vəsaitlərini məxaric etmələri yolu ilə vətəndaşların və bankın hüquqlarına və qanuni mənafelərinə mühüm zərər vurmalarında şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə istintaq davam etdirilir.

## Lukaşenko: "Abxaziya Gürcüstanın bir hissəsidir"

**"Abxaziya Gürcüstanın bir hissəsidir". APA-nın "İnterfaks"a istinadən verdiyi məlumata görə, bunu Tiflisdə səfərdə olan Belarus prezidenti Aleksandr Lukaşenko gürcüstanlı həmkarı Georgi Marqvelaşvili ilə görüşdə bəyan edib.**

Lukaşenko qeyd edib ki, Belarusla Gürcüstan arasında siyasi nöqteyi-nəzərindən ziddiyyətlər yoxdur.

"Qərbdə bizi dəstəklədiyinə görə Gürcüstanın keçmiş prezidentinə və sizə minnətdaram. Utanıram ki, bu vaxtadək Abxaziya istisna olmaqla, Tiflisdə və Gürcüstanın digər yerlərində olmamışam".

## Türkiyə 1915-ci ilin hərbi arxivlərini açıb

**Türkiyə Silahlı Qüvvələri 1915-ci ilə aid hərbi arxivləri açıb. APA-nın "Anadolu" agentliyinə istinadən verdiyi məlumata görə, Türkiyə tərəfi ermənilərin öz arxivlərini açacağını gözləməyərək birtərəfli addım atmaq qərarına gəlib.**

Açılan sənədlərdən görünür ki, I Dünya müharibəsi zamanı Osmanlı İmperiyasında ermənilər ölkə daxilində köçürülərkən təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilib.

Sənədlərdə 1915-ci ildə Anadoluda dinc əhalini qətlə yetirən erməni quldur dəstələri və fərarilər haqqında çoxsaylı faktlar yer alıb.

## İki gün yağış yağacaq

**Aprelin 25-dək ölkə ərazisində qeyri-sabit və yağıntılı hava şəraitinin müşahidə ediləcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, bəzi yerlərdə yağıntının intensiv olacağı, şimşək çaxacağı gözlənilir. Şimal-qərb küləyi güclənəcək.**

Bakıda və Abşeron yarımadasında aprelin 24-də hava şəraitinin dəyişkən buludlu olacağı, axşama doğru arabir yağış yağacağı gözlənilir. Şimal-qərb küləyi güclənəcək.

Havanın temperaturu gecə 5-8, gündüz 10-15 dərəcə isti olacaq.

Abşeron yarımadasında aprelin 24-də güclü xəzri küləyi və aprelin 25-i günüzədək rütubətli hava şəraitinin müşahidə olunması meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

Aprelin 26-da əlverişli, komfort hava şəraiti gözlənilir.

Azərbaycanın bölgələrində aprelin 24-də arabir yağış yağacağı proqnozlaşdırılır. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 5-10, gündüz 12-17, dağlarda gecə 0-4, gündüz 4-8 dərəcə isti olacağı gözlənilir.

## FHN-in sabiq bölmə rəisinə cinayət işi açıldı

**Bakı şəhər sakininin Fövqəladə Hallar Nazirliyinin (FHN) sabiq əməkdaşı tərəfindən ona qarşı yol verilmiş qanunsuz hərəkətləri barədə 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciəti üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb.**

Virtualaz.org Baş Prokurorluğun mətbuat xidmətinə istinadən bildirir ki, FHN-dən Baş Prokurorluğa daxil olmuş eyni məzmunlu müraciət üzrə aparılmış araşdırmalar zamanı Anar Allahverdiyevin FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin Çevik xilasetmə idarəsində bölmə rəisi vəzifəsində işləyərkən qulluq mövqeyindən istifadə etməklə Bakı şəhər sakinini həmin xidmətə işə qəbul etdirmək adı ilə aldadaraq 8 min manat məbləğində pulunu ələ keçirməsində şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla dələduzluq) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.

## Ermənilər Emil Hüseynovu öldürən şəxs üçün pul toplayır

**Bir neçə gün öncə Rusiyanın Yekaterinburq şəhərində azərbaycanlı Emil Hüseynovu qətlə yetirən Tiqran Çiçakyan üçün yerli erməni icması pultoplama kampaniyasına başlayıb.**

Modern.az Rusiya mətbuatına istinadən xəbər verir ki, toplanan vəsait Tiqran Çiçakyana vəkil tutulması üçün və kütləvi davadan sonra xəstəxanaya düşən qardaşı Andronik Çiçakyanın müalicəsinə sərf ediləcək. MMA əlbəyaxa idman növləri üzrə yarışlarda Sverdlovsk vilayətini təmsil edən Tiqran Çiçakyan azərbaycanlılara məxsus "U Saşi" kafesi qarşısında Emil Hüseynovu "özünümüdafiə məqsədilə" bıçaqladığını deyib.

Tiqran Çiçakyan xəstəxanada ağır vəziyyətdə olan qardaşının isə dava zamanı alın sümüyünün sındırıldığını və hazırda onun bahalı əməliyyata ehtiyacı olduğunu deyib.

27 yaşlı Emil Hüseynov aprelin 19-da 23 yaşlı professional idmançı Tiqran Çiçakyan tərəfindən bıçaqlanaraq qətlə yetirilib.

## Azərbaycan mediası Vaşinqtonda diqqətlə izlənir

### Qubad İbadoğlu: "İqtidar qəzetlərinin ABŞ-ı və Barak Obamanı tənqid edən yazıları barədə operativ və təfsilatlı məlumatları var"

**Azərbaycanda iqtidar qəzetlərində son vaxtlar ABŞ və Barak Obama əleyhinə sərt yazılar intensiv dərc olunur. Azərbaycan ABŞ-la müqayisədə çox kiçik dövlət olduğundan bir çox insanlar belə hesab edir ki, Azərbaycan mediası, əsasən də iqtidar mediası Amerikada izlənmir. Hakimiyyət qəzetlərinin də arxayın şəkildə istədiyini yazması bəzən bununla əlaqələndirilir.**

Bəs əslində necədir? ABŞ-da ictimai, siyasi çevrələr Azərbaycan mediası ilə maraqlanırmı? Xüsusilə də iqtidar qəzetlərinin saytlarını oxuyurlarmı?

Bir neçə aydır ABŞ-da fəaliyyət göstərən iqtisadçı alim, ADR sədri Qubad İbadoğlu "Yeni Müsavat"a bildirib ki, Amerikada Azərbaycan mediasında, xüsusən rəsmi mediada yazılanlarla maraqlanmadıqları barədə düşünənlər yanılırlar. Vaşinqtonda Azərbaycanla maraqlanan analitiklər və institutlar ölkədə baş verən bütün məsələlərə dair məlumatlıdırlar: "Bu zaman onların daha çox diqqət yetirdiyi mənbələrdən biri də rəsmi mənbələrdir. Odur ki, iqtidar qəzetlərinin ABŞ-ı və Baraka Obamanı tənqid edən yazıları barədə operativ və təfsilatlı məlumatları var. Bununla yanaşı, alternativ fikirləri öyrənmək üçün digər mənbələrdə də dərc edilən yazılar maraq kəsb edərsə, onunla da tanış olurlar".

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 87 (6115) 24 aprel 2015




# Vicdan məhbusu Tofiq Yaqublunun gənc qızı qürbətdə vəfat etdi

## Mərhumun nəşi bu gün Bakıya gətiriləcək; atası 7 günlüyə azadlığa buraxılır; **İsa Qəmbər:** "Dünya və biz bu gözəlliyi itirdik..."

**"Yeni Müsavat" qəzetinin köşə yazarı, vicdan məhbusu Tofiq Yaqublunun qızı Nərgiz Yaqublu dünən səhər saatlarında Rusiyanın Tomsk şəhərində, müalicə olunduğu xəstəxanada vəfat edib. O, xeyli müddət idi ki, yoluxduğu ağır xəstəlikdən - Hepatit C-dən müalicə olunurdu.**

Son günlərdə komaya düşən mərhumun durumu kritik vəziyyətdə idi. Nərgiz Yaqublu həm də 7 aylıq hamilə idi. Nə yazıq ki, bu gənc, gözəl, bu gün-sabah ana olacaq xanım ağır xəstəliyə qalib gələ bilmədi və bütün sevənlərini, dostlarını, iş və əqidə yoldaşlarını qəhərə boğdu.

Milli Strateji Düşüncə Mərkəzinin sədri (MSDM) İsa Qəmbər Nərgiz Yaqublunun vəfatına dair öz facebook səhifəsində yazıb: **"Dünya və biz bu gözəlliyi itirdik. Tanrı ruhunu şad eləsin..."**

***

Dünən acı xəbəri alan kimi ölkəmizin tanınmış simaları Tofiq Yaqublunun Qaraçuxur qəsəbəsindəki ata evinə toplaşıblar. Təziyə məclisinə gələnlər arasında İsa Qəmbər, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu, "Bozqurd"ların lideri İsgəndər Həmidov, mərhumun əqidədaşları, yazarlar, gənclik hərəkatının üzvləri, müsavatçılar, yaxınları olublar.

Sosial şəbəkələrdə yüzlərlə istifadəçi Nərgizin vaxtsız vəfatından üzüntüsünü dilə gətirib, bu ağır xəbəri və kədəri bir-biriylə paylaşırlar.






***

Baş redaktorumuz Rauf Arifoğlu qəzetin sabiq əməkdaşının vaxtsız vəfatını belə reaksiya verib: "Nərgiz Yaqublunu itirdik. Hamımızın başı sağ olsun!"

**AXCP sədri Əli Kərimli Nərgiz Yaqublunun kədərli ölümü ilə bağlı status paylaşıb:** "Nərgizin bu vaxtsız ölümü məni çox sarsıtdı. Dostum Tofiq Yaqublunun ailəsi son illərdə çox acılar çəkmişdi. Nərgizin ölümü isə əsl faciə oldu. Tofiq Yaqublu öz qızları Nigar və Nərgizlə çiyin-çiyinə neçə illər bu ölkədə haqq davası aparıb. Bu ailə son illərdə çox ağır sınaqlara çəkildi, haqsız, vicdansız məhrumiyyətlərə düçar edildi. Əvvəlcə Nigar həbs edildi, o azadlığa çıxmamış Tofiq bəyin özü də şərlənərək həbs olundu. Tofiq bəyin Şəkidə keçirilən məhkəməsinə gedən həyat yoldaşı Maya xanım avtomobil qəzasına düşüb ağır xəsarət aldı, ölümdən döndü. Bu ailəni son illərdə yalnız Nərgizin bir neçə ay bundan öncə olmuş toyu sevindirmişdi. İndi Nərgiz bütün sevincləri özü ilə götürüb apardı. Allah bu gənc qızımıza rəhmət etsin! Allah Tofiq Yaqubluya və ailəsinə bu acıya dözmək üçün güc və qüvvət versin! Allah namərd və kəmfürsətlərin gözünü açsın, onlara insaf versin, onları bu anti-insani yoldan çəkindirsin!"

Onun vətənpərvərliyi təsadüfi deyildi, atasından gəlirdi. O atasından ki, təzə-təzə dil açan Nərgizi iki yaşında anasıyla tək buraxıb könüllü olaraq Qarabağa, döyüşə, od-alovun içinə getmişdi. Nərgiz o igid, döyüşçü atasını son dəfə dəmir barmaqlıq arasında gördü. Onlar bir daha ata-bala olaraq bir-birinə sarıla bilmədilər. Nərgiz qısa, amma mənalı, mübarizə dolu bir ömür yaşadı".

**Musavat.com-un baş redaktoru Xalid Kazımlının yazısı daha təsirlidir:** "Acımız, ağrımız böyükdür: gözəl Nərgizimiz soldu. İnanmaq çətindir, daima gülərüz, ətrafına nur saçan bu gənc, gözəl qız artıq aramızda yoxdur. Amansız ölüm onu əlimizdən aldı.

Çox gənc idi, ömür yolunun başlanğıcındaydı. Sevdiyinə yenicə qovuşmuşdu. Ana olacaqdı. Arzuları vardı. Hamısı yarımçıq qaldı. Anası ağır qəzadan sonra özünə gələ bilməmişdi. Atası məhbəs bucaqlarındadır. Tofiq Yaqublu qızının toyunu görə bilmədi, xeyir-duasını verə bilmədi, son günündə də yanında ola bilmədi. Dözümlüydü, sınmaq, usanmaq, təslim olmaq nədir - bilməzdi. Bu mələk üzlü qızda qladiator ruhu vardı, döyüşçüydü. Həyatını insanlara, vətəninə fəda etməyə hazır idi.

***

Qeyd edək ki, indiyə qədər yaxınlarını itirən siyasi məhbusların əksəriyyəti 3-7 günlüyünə azadlığa buraxılıb. Tofiq Yaqublunun da qızının yas mərasimində iştirak edəcəyi dəqiqləşib. Belə ki, vəkil Nemət Kərimli mərhumun ölüm xəbərini alan kimi Ədliyyə Nazirliyinə müraciət edib. Penitensiar Xidmət başqan müavininin 7 günlüyə azadlığa buraxılması icazəsini verib. Tofiq Yaqublunun dünən azadlığa buraxılacağı deyilsə də, sonradan aidiyyəti orqan fikrini dəyişib. Səbəb olaraq, mərhumun cənazəsinin bu gün Bakıya gətiriləcəyi göstərilib.

**Bu barədə Nemət Kərimli məlumat verib:** "Sabah *(bu gün-red.)* səhər saatlarında Tofiq bəy azad olunacaq. Penitensiar Xidmət onun bu gün (dünən-red.) azad olunacağını desə də, sonradan məsələnin həllinin sabaha qaldığını bildirdilər. Səbəb kimi onu göstərdilər ki, cənazə sabah gətiriləcək. Tofiq bəyin vaxtının sabahdan hesablanmasını və qızının yeddi mərasimində iştirak etməsinə şərait yaratmaq istədiklərini söylədilər".

Xatırladaq ki, Tofiq Yaqublunun azadlığa çıxması üçün hələ ötən həftə "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu ölkə prezidentinə məktubla müraciət edib.

***

Qeyd edək ki, mərhum ötən il ailə həyatı qurmuşdu. Rusiyada yaşayırdı. 26 yaşı var idi.

"Yeni Müsavat" ailəsi Nərgizin yaxınlarına, onu sevənlərə və xüsusilə də Tofiq Yaqubluya dərin hüznlə başsağlığı verir və səbir diləyir.

**Allah rəhmət eləsin!**

**❑ Cavanşir ABBASLI**








YENİ MÜSAVAT
N 87 (6115) 24 aprel 2015



# Əliyevlə Ərdoğan Atatürkün yaxtasında şam edəcək

**Prezident İlham Əliyev Türkiyəyə səfər edəcək. Ölkə başçısı səfər zamanı aprelin 24-də Çanaqqala döyüşünün 100-cü ildönümü ilə bağlı keçiriləcək tədbirdə iştirak edəcək. Virtualaz.org saytı Türkiyənin "Milliyet" qəzetinə istinadən xəbər verir ki, sabah keçiriləcək tədbirlərdən sonra Bakı vaxtı ilə saat 21-də Ərdoğan qonaqlara "Savarona" gəmisində axşam yeməyi verəcək. Ziyafətə dövlət rəsmiləri və tədbirə dəvət olunan qonaqlar qatılacaq.**




Yemək zamanı "Savarona" gəmisi Çanaqqala sahillərində hərəkət edəcək.

Bayram tədbirlərində bir çox dövlət rəsmilərindən əlavə prezidentlər də iştirak edəcək. İlham Əliyevdən başqa İraq prezidenti də mərasimə qatılacaq.

Yeni Zelandiya və Avstraliyanın baş nazirlərinin də tədbirlərdə iştirak edəcəyi gözlənilir.

Qeyd edək ki, qonaqların gəzəcəyi və axşam yeməyi yeyəcəyi "Savarona" gəmisi Mustafa Kamal Atatürkün yaxtası kimi tanınır. Həmin gəmi hazırda İran əsilli azərbaycanlı iş adamı Rza Zərrab tərəfindən icarəyə götürülüb.

Qeyd edək ki, bu gəmi muzey kimi istifadə edilmək üçün Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinə verilmişdi. Sonradan Rza Zərraba məxsus "Royal Dənizçilik" şirkəti tərəfindən həftəsi 350 min avroya oliqarxlara kirayəyə verilir.

Türkiyə Odalar və Borsalar Birliyinin (TOBB) 2013-cü ildə keçirilən iclasında "Savarona"nın alınıb Mədəniyyət və Turizm Nazirliyinə qaytarılması haqda qərar qəbul edilmişdi. Yaxtanın alınması işi TOBB rəhbərinin müavini və İstanbul Ticarət Birjası sədri Əli Kopuza tapşırılmışdı.

Ə.Kopuz Atatürkün yaxtasını 49 illiyinə kirayəyə götürən və işlətdiyi 25 ildən sonra xərcinin çox olması səbəbindən satmaq istəyən Qəhrəman Sadıqoğlu adlı iş adamından təxminən 7 milyon dollara alıb. Nazirlik yaxtadan muzey kimi istifadə etməli idi. Lakin o, sonradan icarəyə verilib.

Xatırladaq ki, "Savarona" 1938-ci ildə Türkiyə hökuməti tərəfindən alınaraq Mustafa Kamal Atatürkə hədiyyə edilmişdi. O zamanlar vəziyyəti ağır olan və səhhəti günbəgün pisləşən Atatürk ölümündən əvvəl yaxtada yalnız altı həftə vaxt keçirə bilmişdi. "Savarona" 1931-ci il, martın 28-də suya salınanda dünyanın ən böyük yaxtası idi. Hazırda da dünyada ən iri yaxtalardan biri sayılır.


Zakir Həsənov

# Düşmən əl-ayağa düşdü: ölən erməni əsgərləri gizlədirlər

## Ermənilər Zakir Həsənovdan qorxduqlarını etiraf etdi

**Erməni əsgər valideyinlərinə "övladlarınızı rejimin əlindən alın!" çağırışı edilib. Regional Sabitlik və Təhlükəsizlik Mərkəzindən musavat.com-a daxil olan məlumata əsasən, son günlər cəbhədə artan intensivlik və ölən erməni hərbi qulluqçuları ictimaiyyətdən gizlədilir.**

Erməni kütləvi informasiya vasitələrinin yaydığı xəbərə görə, yerli sakinlər bildirirlər ki, dövlət rəsmiləri ölən əsgərlərin gətirildiyi evlərə gələrək, ölənin qohumlarını, yaxınlarını, kənd sakinlərini sakitləşdirməyə çalışırlar.

Qondarma soyqırım ərəfəsində sabitliyi saxlamaq, dəvət olunan qonaqlarda mənfi ab-hava yaratmamaq məqsədilə ölkə rəhbərliyinin canfəşanlığı ilə bağlı sosial şəbəkələrdə yazılar yayıldıqdan sonra orduda xidmət edən hərbi qulluqçular, xüsusən də əsgər analarının təşkilatı olan "Əsgər anaları" ictimai birliyi etiraz aksiyasına çağırıb. Hökumət binası qarşısına toplaşan əsgər valideynləri Qarabağda xidmət keçən övladlarını Ermənistana geri çağırmağı tələb ediblər.

24 aprel qondarma soyqırım ərəfəsində Azərbaycanın hücum edəcəyi ilə bağlı xəbərlərdən təşvişə düşən valideynlər, övladlarını geri çağırmasalar, 24 aprel tarixində övladlarını qorumaq üçün Qarabağa yollanacaqlarını bildiriblər.

"Öləcəyiksə, bir yerdə ölək" deyən analar Qarabağda xidmət keçən əsgərlərin analarını birləşməyə və Qarabağa gedərək, övladlarını cinayətkar rejimin əlindən almağa çağırıblar. Onlar Sarkisyan rejimini bugünkü erməni gəncliyini təhlükəyə ataraq, 100 il əvvəl olduğu ehtimal olunan hansısa keçmişin qalıqlarında eşələnməkdə günahlandırır, bu gün günahsiz olan övladlarının həyatına təminat istəyirlər.



Yayılan xəbərlərə görə, cəbhədə son günlər artan itkilərdən narahat olan hökumət diqqətini tam olaraq, ölkədəki sabitliyi saxlamağa, tədbiri insidentsiz yola vermək üçün bütün imkanlarından istifadə etməyə çalışır.

Dəvət olunan qonaqların Ermənistana səfəri ərəfəsində əsgər valideynlərinin Qarabağa, övladlarının yanına səfər etmək çağırışları hökuməti ciddi narahat edir.

**"ATƏT hələ də Azərbaycanın müdafiə naziri Zakir Həsənovun sözlərinə reaksiya verməyib".** AzVision.az-ın news.am saytına istinadən xəbər verir ki, bu barədə Ermənistan müdafiə nazirinin mətbuat katibi Artsrun Ovannisyan deyib.

Qeyd edək ki, aprelin 22-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşiklə görüşüb. Müdafiə naziri Ermənistan tərəfindən ərazilərimizin işğal edilməsi, rəsmi İrəvanın sülh danışıqlarından boyun qaçıraraq cəbhədə vəziyyəti gərginləşdirməsi və son vaxtlar uğursuzluğa düçar olaraq çoxsaylı itkilərə məruz qalan düşmənin minaatanlardan, iriçaplı silahlardan istifadə etməklə yaşayış məntəqələrini, qeyri-hərbi obyektləri və dinc sakinləri atəşə tutmaları faktlarını bir daha qonağın diqqətinə çatdırıb.

'Silahlı Qüvvələrimizin bölmələri hər dəfə düşmənin atəş nöqtələrini susdurmaq məqsədilə effektiv cavab tədbirləri görür. Təmas xəttində yerləşən bütün şəxsi heyətə hərəkət edən istənilən hərbi obyekti dərhal məhv etmək tapşırığı verilib və bu, qeyd-şərtsiz yerinə yetirilir'.

# Polad Bülbüloğluna daha bir ittiham

## Səfir vurulmuş və hətta düşmən elan edilmiş Abbas Abbasovun ətəyini niyə buraxır?

**Xəbər verdiyimiz kimi, Rusiya Azərbaycanlılarının Federal Milli-Mədəni Muxtariyyəti - "AzerRos"un növbədənkənar VI qurultayı ötən həftə keçirildi. Bu "birləşdirici qurultay" "AzerRos"u parçalamış Azərbaycan baş nazirinin sabiq birinci müavini Abbas Abbasov üçün "son şans" hesab olunurdu. Çünki diaspora üzvləri A.Abbasovu qurultaya dəvət edərək tədbirə gəlməyəcəyi təqdirdə siyasətdən getməyi təklif etmişdilər. A.Abbasov isə qurultaya gəlmədi və bununla da özünü qurumun işindən birdəfəlik kənarda qoydu.**

Bu məsələlər ətrafında diqqət doğuran məqamlardan biri də Rusiya azərbaycanlılarının ən böyük təşkilatlarından olan "AzerRos"da baş verən hadisələrlə bağlı Azərbaycanın Rusiyadakı səfirliyinin müəmmalı mövqeyi oldu. Təsadüfi deyil ki, aprelin 14-də "AzerRos"un növbədənkənar qurultayından sonra Söyün Sadıqov mətbuata verdiyi açıqlamasında səfir Polad Bülbüloğlunu öz həmyerlilərinin taleyinə biganəlikdə ittiham etdi. "AzerRos"un yeni sədri deyib ki, A.Abbasov Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu ilə bir qayıqda yer alır. "Azərbaycanlılar bilmək istəyir ki, səfir Polad Bülbüloğlu Rusiyada Azərbaycan prezidentini təmsil edir,


Polad Bülbüloğlu

yoxsa Abbas Abbasovun çirkin oyunlarının iştirakçısıdır?" deyə, o bildirib.

Bu ittiham Azərbaycan mediasında geniş müzakirə olunur. Söyün Sadıqovun Azərbaycanın Rusiyadakı səfirini ittiham etməsinə Moskvadakı səfirlik tərəfindən hər hansı reaksiya verilməyib. Dəfələrlə cəhd etməyimizə baxmayaraq, səfirlikdən və səfir Polad Bülbüloğlundan "Yeni Müsavat" münasibət öyrənə bilməyib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev "Yeni Müsavat"a açıqlamasında deyib ki, XİN ictimai qurum tərəfindən verilən açıqlamaları şərh etmir: "Xarici İşlər Nazirliyi bu cür şayiə tipli açıqlamalara şərh vermir".

Yada salaq ki, Polad Bülbüloğlunun adı 2012-ci ildə Abbas Abbasovla çəkilib. Özü də həmin vaxt Polad Bülbüloğlu bu mövzuda təkzib də vermişdi. Məsələ burasındadır ki, 2012-ci ilin sentyabrında səfir Polad Bülbüloğlu da "Milyarderlər İttifaqı" - RATİ-nin təsis toplantısında iştirak edib xeyir-dua vermişdi. Ancaq Bakıdan verilən sərt bəyanatlardan sonra P.Bülbüloğlu tam geri çəkildi. Həmin vaxtlar mətbuatda yazıldı ki, Rusiyadakı səfirin "Milyarderlər İttifaqı"nın hakimiyyət əleyhinə olduğundan öncədən "xəbəri olmayıbmış".

"Novoye vremya" qəzeti aprelin 21-də "Söyün Sadıqov düşməndən dosta çevrilib?" başlıqlı məqalə dərc edilib. Məqalədə "AzeRos"un qurultayında iştirak edən Azərbaycanın Rusiyadakı səfirinin müavini Qüdsi Osmanov da hədəfə alınır. Bu səbəbdən də məqalənin məhz P.Bülbüloğlundan gələn təşəbbüs olduğu deyilir. Hətta bildirilir ki, bu məqalə səfirin tapşırığı ilə Moskvadakı səfirlikdə hazırlanıb və "Novoye vremya" qəzetinə ötürülüb. Bu barədə xəbər verən millixeber.com saytı yazır ki, əgər məsələ həqiqətən də belədirsə, bu artıq səfirin özünümüdafiə, "özbaşınalıqda" ittiham etdiyi müavinini yerinə oturtmaq cəhdindən daha çox, Azərbaycan hakimiyyətinə qarşı demarşı deməkdir.

"Görünür, səfirin Abbas Abbasov və onun yaxın ətrafı ilə bağlantısı həqiqətən də çox möhkəmdir ki, o, artıq vurulmuş və hətta düşmən elan edilmiş baş nazirin sabiq birinci müavininin ətəyini buraxa bilmir" deyə, sayt yazır.

❑ Xəbər xidməti

## MTN-in tutduğu dəstə nazirin adamlarının gizli hesabını ələ keçiribmiş

**Nəqliyyat naziri Ziya Məmmədovun qardaşları-Nəriman və Loğman Məmmədovların bankdan külli miqdarda pulunu oğurlayıblar. Bu sensasion xəbəri redaksiyamıza verən mənbə deyib ki, oğurluq Məmmədovların Beynəlxalq Bankın "Nəqliyyat filialı"nda olan bank hesablarından olub. Ən maraqlısı odur ki, Məmmədovlar bank hesablarında 2011-2014-cü illər ərzində oğurlanmış pullardan xəbər tutmayıblar.**




# Ziya Məmmədovun qardaşlarını soyublar-şok faktlar

### Loğman və Nəriman Məmmədovlar Beynəlxalq Bankın "Nəqliyyat filialı"nda olan bank hesablarından oğurlanmış pullardan gec xəbər tutublar; zərərçəkənlərin siyahısında "Azəryolservis"in vəzifəli şəxsləri də var...

Yəni pulların hesablarından silinməsini fərq etməyiblər. Zərərçəkənlərin siyahısında Ziya Məmmədovun və deputat Cavid Qurbanovun yaxın adamları, "Azəryolservis"in vəzifəli şəxsləri də var. Bunlar Ramin İsmayılov, Tahir Əliyev və Xəqani Kazımovdur. Bu adamların da "Nəqliyyat filialı"nda depozit hesabları olmuş və həmin hesablaşma hesablarında bir neçə milyon yerləşdirilibmiş. Məmmədov qardaşlarına və nazirə yaxın digər şəxslərin də külli miqdarda pulu oğurlanıb...

Redaksiyamıza daxil olan məlumata görə, hazırda Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə bu işlə bağlı həbs edilən mütəşəkkil qrupun mühakiməsi başlayıb. Məhkəməyə sədrliyi hakim Zeynal Ağayev edir. Təqsirləndirilən şəxslər Hadiyev Fərid Şövqi oğlu, Ələkbərov Yaşar Bayram oğlu, İbrahimov Nasir Aydinoviç, Bayramov Fərrux Teyyub oğlu, Aqarunov Rinat İliç, Rusiya Federasiyasının vətəndaşı İfraimov Nair İlişayeviç MTN-in keçirdiyi əməliyyat nəticəsində həbs olunublar.




Fərid Hadıyev bu işdə əsas fiqurantdır. Çünki o, Beynəlxalq Bankın "Nəqliyyat filialı"nda əməliyyat şöbəsində baş mütəxəssis işləyib. İttiham aktına görə, F.Hadıyev Ziya Məmmədovun qardaşı Loğman Məmmədovun bank kartının nömrəsi, məxfi kodu və hesabındakı məbləğ barədə Yaşar Ələkbərova məlumat verib. Y.Ələkbərov da həmin hesabda olan pulları müxtəlif müddətlərdə və müxtəlif pul köçürmə sistemi, o cümlədən "Kontakt" sürətli pul köçürmə sistemi ilə Nair İlişayeviçin hesabına köçürüb. Məlum olub ki, 2013-cü ildə nazirin qardaşının hesabından 69.995,37 ABŞ dolları (54.596,4 manat), 97,95 avro (103, 83 manat), 3.915, 28 Ukrayna qrivnası (332,8 manat), 4.079.310,72 Rusiya rublu (81, 586,2 manat) pulunu gizli olaraq mənimsəyiblər.




Ziya Məmmədovun daha bir qardaşı Loğman Məmmədovun bank sirri hesab edilən məlumatları da eyni üsulla ələ keçirilərək orada olan pul vəsaiti mənimsənib. Məlum olub ki, 2014-cü ilin 11 martından 5 mayına qədər olan müddətdə Loğman Məmmədovun bank hesabından ümumilikdə 88 min 300 ABŞ dolları (68.874 manat) mənimsənib. Amma bu dəfə pullar Fərrux Bayramovun hesabına köçürülüb. Pulları bank kartlarına köçürdükdən sonra Bakı şəhərində yerləşən müxtəlif bankomatlardan və bank şöbələrindən çıxarıblar.

İttiham olunan dəstə "Azəryolservis"in vəzifəli şəxslərini də demək olar ki, eyni üsulla talayıblar.

Dəstə Xəqani Kazımovun adına olan hesabdan 2013-cü ilin avqust ayının ortasından həmin ilin oktyabr ayınadək 4.676.117,56 Rusiya rublunu (93.522,35 manat) mənimsəyib. Pul bu dəfə də Nair İlişayeviçin hesabına köçürülərək nağladlaşdırılıb. Ramin İsmayılovun hesabından oğurluq 2014-cü ilin 12 mayında baş verib. Bu dəfə ələ keçirilən hesab nömrəsindən dəstə üzvü Rinat Aqarunovun adına "Bank Respublika"da açılmış hesaba köçürülüb. Sonra isə bank kartları ilə Moskva şəhərində yerləşən bankomatlar, eləcə də Bakıdakı bank şöbələrindən nağladlaşdırılıb. Ona da 72.144 (56.272,32 manat) ziyan vurulub.

Nəhayət, "Azəryolservis"in daha bir rəsmi şəxsi Tahir Əliyev də eyni üsulla talanıb. "Bank Respublika"da açılmış hesab vasitəsilə onun da 65.130 ABŞ dolları (50.801,4 manat) mənimsənilib.

Xəbər redaksiyamıza daxil olduqdan sonra dəqiqləşdirdik ki, Milli Təhlükəsizlik Nazirliyi həqiqətən də ötən ilin iyun ayının 17-də kompüter sisteminə qanunsuz daxil olaraq həmin sistemdəki məlumatları ələ keçirməklə müxtəlif bank hesablarından külli miqdarda pul vəsaitlərini talayan dəstəni həbs edib. Rəsmi məlumatda bildirilib ki, faktla bağlı Milli Təhlükəsizlik Nazirliyi İstintaq Baş İdarəsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda ziyan vurmaqla özgənin əmlakını gizli olaraq talama), 271.3-cü (ictimai əhəmiyyətli infrastruktur obyektin kompyuter sisteminə qanunsuz daxil olma) və 272.3-cü (ictimai əhəmiyyətli infrastruktur obyektin kompüter sistemində məlumatları qanunsuz ələ keçirmə) maddələri ilə cinayət işi başlanılıb.

***

Loğman Məmmədov Ziya Məmmədovun qardaşıdır və o, hazırda Nəqliyyat Nazirliyinin ən böyük avtobazalarından birinə rəhbərlik edir. Nəriman Məmmədov da əvvəllər nəqliyyat sistemində işləyib, indi isə yaşlı olduğu üçün təqaüddədir.

❑ **"Yeni Müsavat"**

## Bakıda bank müdirini öldürən şəxs həbs olundu

**Aprelin 22-nə keçən gecə "Avropa" hotelində qətl törədən şəxs saxlanılıb. Nəsimi Rayon Polis İdarəsindən lent.az-a verilən məlumata görə, 1987-ci il təvəllüdlü Quliyev Sənan Təvəkkül oğlu bu gecə yaxalanaraq istintaqa təhvil verilib.**


Azər Məmmədov

Qeyd edək ki, aprelin 22-nə keçən gecə Nəsimi rayonu ərazisində yerləşən "Avropa" hotelinin idman zalında naməlum şəxs Bakı şəhər sakinləri Azər Məmmədov və Ruslan Əfəndiyevi bıçaqlayıb. A.Məmmədov hadisə yerində ölüb, R.Əfəndiyev isə xəstəxanaya yerləşdirilib.

Onu da qeyd edək ki, A.Məmmədov "Zaminbank"ın filial müdiri olub. Digər bıçaqlanan R.Əfəndiyev isə idman ustası, qarışıq döyüş idman növü üzrə məşqçidir. Bildirilir ki, A.Məmmədov hotelin idman zalında məşq edərkən S.Quliyevlə hotelin idman zalının qarışıq döyüş növləri üzrə məşqçisi R.Əfəndiyev arasında mübahisə yaranıb. A.Məmmədov onları sakitləşdirməyə çalışıb. S.Quliyev bıçaqla məşqçiyə və Azərə zərbələr vurub və hadisə yerindən qaçıb.

Faktla bağlı Nəsimi Rayon Prokurorluğunda başlanmış cinayət işinin istintaqı davam etdirilir.

## ABŞ Azərbaycan hökumətinin tənqidlərinə cavab verdi

**Son günlər Azərbaycanın rəsmi mediasında Amerika prezidenti, dövlət katibi, bu ölkədə insan hüquqları və korrupsiya ilə bağlı kəskin ittihamedici məqalələr dərc edilir.**




Bununla bağlı ABŞ-ın Azərbaycandakı səfirliyi "Amerikanın Səsi"nin sualına cavab verib.

**Cavabda deyilir:** "Amerika Birləşmiş Ştatları dünyanın müxtəlif ölkələrində cərəyan edən olayları yaxından izləyir və müntəzəm olaraq narahatlıq doğuran məsələlər barədə məlumatı həm özəl görüşlər vaxtı, həm də ictimayyətlə açıq şəkildə paylaşır. Biz dialoqu, fikir mübadiləsini və əsaslandırılmış tənqidi alqışlayırıq. Həmçinin biz digər xarici hökumətlərin Birləşmiş Ştatlarda baş verən hadisələri izləmək və ya şərh etmək fəaliyyətini ABŞ-ın daxili işlərinə müdaxilə kimi qiymətləndirmirik".

## Cavid Qurbanov Eldar Əzizovla birgə baxış keçirdi

**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Bakı-Xırdalan-Sumqayıt sərnişin sahəsində olub, əsaslı təmir işlərinin gedişi ilə tanış olub.**



Virtualaz.org QSC-yə istinadən bildirir ki, sədr Sumqayıt sərnişin stansiyasının yenidənqurulması üçün təqdim olunan layihələrə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovla birgə baxıb.

Qeyd edək ki, Bakı-Xırdalan-Sumqayıt sərnişin sahəsində 63 km uzunluğunda dəmir yolunun əsaslı təmir işlərinə 3 mart 2015-ci ildə start verilib və bu günə kimi 24 km yol əsaslı təmir olunub. Hazırda Keşlə-Biləcəri mənzilində əsaslı təmir işləri davam edir.

Əsaslı təmir işlərini İnfrastruktur Departamentinin iştirakı ilə "Dəmiryolservis" MMC-nin müəssisələri həyata keçirir.

Sumqayıt baş stansiyasına daxil olmadan Sumqayıt sərnişin stansiyasına hərəkət etmək üçün 1,65 km uzunluğunda yeni birləşdirici yolun tikintisi də nəzərdə tutulur.

Əsaslı təmir işləri başa çatdıqdan sonradan elektrik qatarlarının Bakı sərnişin stansiyasından Sumqayıt sərnişin stansiyasına qədər getməsinə 40 dəqiqə vaxt sərf olunacaq.

YENİ MÜSAVAT
N 87 (6115) 24 aprel 2015



# Bakılı oliqarxların vergi fəryadı

Kənan RÖVŞƏNOĞLU

Və ya hakimiyyətin himayəsində, rəqabətsiz böyük biznes quran iş adamlarının vergi şikayətləri niyə əsassızdır?

**Son aylarda Azərbaycanda, əsasən də paytaxt Bakıda iri özəl müəssisələrdə vergi yoxlamaları, cərimələrlə bağlı şikayətlər artıb. Şirkətlər, sahibkarlar vergi yükünün artmasından, rüsumlardan şikayətlənirlər. Bir neçə gün öncə mətbuatda Vergilər Nazirliyinin "Nurgun Motors" şirkətinin bir sıra avtomobil salonlarında əmlakını siyahıya aldığı xəbəri getdi. Nazirlik bunu şirkətin vergi borcunun yaranması ilə əlaqələndirdi. Daha sonra paytaxtın "Xalqlar Dostluğu", "Laçın" yarmarkaları kimi məşhur ticarət mərkəzlərinin böyük məbləğdə işıq pulu borcuna görə qapadılma təhlükəsinin yaranması xəbərləri yayıldı. Amma siyahı bunlarla bitmirdi.**

Maraqlıdır ki, Vergilər Nazirliyi son zamanlar vergi borclarının ödənilməsi ilə bağlı fəaliyyətini gücləndirib. Nazirliyin saytında vergi borcunu ödəməyən 400-dən artıq hüquqi və fiziki şəxsin adları qeyd olunub.

Baş verənlərin isə sadə səbəbi var: hökumət neft qiymətlərinin qəfil ucuzlaşması, bunun ardınca manatın devalvasiyası fonunda Avropa Oyunlarına hazırlıq və büdcə kəsirinin aradan qaldırılması üçün ciddi tədbirlərə əl atıb. Yəni Vergilər Nazirliyi heç kimə güzəşt etmədən bütün obyektlərdə yoxlamalara başlayıb. İri şirkətlərdən tutmuş marketlərə qədər bütün obyektlər vergi yoxlamasına cəlb olunur və ya köhnədən qalan borcların, dövriyyəsini gizlədən, vergidən yayınanlar yüksək məbləğdə cərimələnir. Və təbii ki, bu prosesdə sahibkarlar böyük məbləğdə ödəniş etməyə məcbur edilirlər.

Əlbəttə, bu cür fəaliyyətlər bir sıra hallarda mövcud qanunların tələblərindən kənara çıxır. Sahibkarların dediyi kimi, biznes mühitini zəiflədir və sair. Ancaq burda bir obyektiv sual yaranır. Axı indi vergidən şikayətlənən, azad bazara vergi təzyiqindən dad edən şirkətlərin heç biri Azərbaycanda azad rəqabət mühitində, normal iqtisadi münasibətlər şəraitində formalaşmayıblar. Üzdə olan böyük şirkətlərin və onların sahiblərinin demək olar ki, hamısı hakimiyyətə bu və ya digər formada bağlıdır. Heç bir ticarət mərkəzi, avtomobil salonu, idxal və ya istehsal *(cüzi də olsa)* şirkəti azad bazar mühitində, sağlam rəqabət şəraitində böyüməyib. Hamısının arxasında hakimiyyətin əli olub. Bir zamanlar, elə indi də bu şirkətlərə daxili bazarda monopolist hüquqlar tanınıb, iştirak etdikləri bazarın sahibi olublar. Bu şirkətlərin demək olar ki, hamısı bu günə qədər ciddi vergi yoxlamalarına məruz qalmayıblar, hakimiyyətin tanıdığı üstünlüklər hesabına, düz-əməlli vergi ödəmədən, saxta vergi hesabatları ilə işləyiblər. Və bunun hesabına milyonlar, yüz milyonlar qazanıblar.

İndi isə necə deyərlər, durum dəyişib. Azərbaycan hökuməti neftdən gələn gəlirlərinin bir qismindən məhrum olub. Üstəlik, Avropa Oyunlarına hazırlıq hökumət üçün əlavə maliyyə yükünə çevrilib. Yaranmış boşluğu isə yalnız "daxili imkanlar" hesabına ödəmək mümkündür. Bu mənada indi Azərbaycan hakimiyyəti məntiqi baxımdan haqlı olaraq bir zamanlar *(elə indi də)* böyük güzəştlər etdiyi, qeyri-azad rəqabət mühiti yaradaraq milyonlar qazanmasına səbəb olduğu özəl biznesdən *(əslində əksəriyyəti özəl də deyil, hansısa hakimiyyət məmuruna məxsusdur - K.R.)* pul və ya başqa dildə yardım istəyir. Nəzərə almaq lazımdır ki, bu şirkətlər uzun illər qeyri-sağlam rəqabətdən və monopoliya hüququndan istifadə edərək vergilərdən yayınaraq çox böyük məbləğlər qazanıblar.

Bu mənada indi çabalayan, sadə işçiləri ortaya çıxarıb onların dili ilə vergidən və haqsız rüsumlardan şikayətlənən Azərbaycan biznesmenlərinin əməlləri səmimi görünmür. Əksinə, hər çox insanlar monopolist şirkətlərin heç olmasa indi vergiyə cəlb olunub, qazanclarının bir qismini dövlətə bölüşəcəyi fikrindən məmnundur. Yaxud da ən yaxşı halda "bu bizim davamız deyil" deyəcək qədər rahatdırlar.

# Müsavat başqanının həbsdəki müavininin iddiaları ilə bağlı açıqlama gəldi

## Tural Sadıqlı gizli profillərin əsl sahiblərinin adını açıqladığını etiraf edir, ancaq...

**Müsavat başqanının müavini, hazırda məhkəməsi davam edən Fərəc Kərimli məhkəmə istintaqına ifadəsində həbsinin səbəbləri barədə danışıb. F.Kərimli bildirib ki, Müsavat Partiyasının sosial şəbəkələrdəki təbliğat fəaliyyətini aparıb. Eyni zamanda bildirib ki, həbs olunmasında keçmiş partiyadaşı Tural Sadıqlı rol oynayıb.**

**Sitat:** "Mən öz fəaliyyətimi psevdonimlə *(Turan Türk)* icra etdiyim üçün kimliyimi müəyyən edə bilmirdilər. Həbsxanada mənə məlum oldu ki, məni xüsusi xidmət orqanlarının Müsavat gənclər təşkilatına yeritdiyi, indi Almaniyada olan Tural Sadıqlı vasitəsilə "ifşa" edərək həbs edə biliblər..."

F.Kərimli bildirib ki, istintaq zamanı müstəntiq onu Müsavat Partiyasının fəaliyyəti, o cümlədən İsa Qəmbər, Arif Hacılı ilə münasibətləri barədə soruşub, musavat.com saytına müdaxilə etməsini istəyib.

**Qeyd edək ki, hazırda Almaniyada mühacirətdə olan Tural Sadıqlı F. Kərimlinin ittihamlarına münasibət bildirib. T. Sadıqlı facebook profilində yaydığı açıqlamasında F.Kərimovla aralarında soyuqluq olduğunu etiraf edib. Həmçinin etiraf edib ki, sosial şəbəkədə Turan Türk profilinin əsl sahibinin, yəni Fərəc Kərimlinin adını açıqlayıb:** "Deməli, mən keçən ilin mart ayında Almaniyaya gəlmək məcburiyyətində qaldığım zaman mənimlə şəxsi inciklikləri olan bir neçə müsavatçı və gözü götürməyən digər bir neçə müsavatçı barəmdə facebook sosial şəbəkəsində təhqirlər işlədərək statuslar yazdılar, müzakirələr açdılar. Bunların içərisində hazırda həbsdə olan və bu gün barəmdə "məni xüsusi xidmət orqanlarının Müsavat gənclər təşkilatına yeritdikləri, indi Almaniyada olan Tural Sadıqlı vasitəsilə "ifşa" edərək həbs edə biliblər" işlədən Fərəc Kərimov da var idi. Fərəc Kərimov o zaman Turan Turk profili işlədirdi. Mən də cavab olaraq məni təhqir edən kəslərə adlarını yazaraq xitab etdim, söyüşsüz, təhqirsiz - adıma yaraşan şəkildə cavablarını verdim".



Fərəc Kərimli



Tural Sadıqlı

T.Sadıqlı qeyd edib ki, ona qarşı hücum edənlərlə bağlı Müsavat Partiyası Divanına müraciət edərək tədbir görülməsini tələb edib və bu şəxslərin töhmət almasına nail olub. Onun sözlərinə görə, bu hadisədən 4 ay sonra Fərəc Kərimli və qardaşı Sirac həbs olunub, bundan bir neçə ay sonra isə o, partiyadan seçki saxtakarlıqlarına etiraz edərək istefa verib. Daha sonra T.Sadıqlı F.Kərimlinin iddiasına əks-arqument kimi bir neçə məqamları sadalayıb.

**1)** Turan Türk profili gizli profil deyildi. Orada bəzən Fərəc Kərimovun özünün də tag edilən şəkilləri olurdu. Yəni bu profil Azərbaycan hakimiyyətinin narahatçılığına səbəb olsaydı və MTN bu profili tapmaq marağına düşsəydi, bu çətin bir iş olmazdı. Bir profildə ki profili işlədənin şəkilləri var, onun harası gizli profil oldu?!

**2)** Fərəc Kərimov məni təhqir edib və cavablarını aldıqları hadisənin üstündən 4 ay keçdikdən sonra həbs olunub. Azərbaycan MTN-i belə xırda işdə adı bəlli olan adamı 4 ayamı tapıb həbs edəcək qədər zəif işləyir?!

**3)** Məni xüsusi xidmət orqanları Müsavat Partiyasına yerləşdiribsə və mən öz "funksiyamı" yerinə yetirib birini ifşa edirəmsə, bunu xüsusi xidmət orqanlarına gizli şəkildə məlumat ötürərəm, açıq şəkildə niyə kiminsə ad-familiyasını yazım, biabır etməyə çalışım?! Müsavat Partiyasının xüsusi xidmət orqanları ilə axı nə işi var ki, xəstə adam halına salınıb. Xəstəliyi də göz qabağındadır.

**4)** Nə üçün indiyədək mətbuatda belə bir açıqlama verməyib Fərəc Kərimovun özü və yalnız məhkəmədə, yəni artıq Müsavat Partiyasının düşməni elan edildikdən sonra barəmdə partiya səviyyəsində belə ləkəyaxma kampaniyası aparılır?!

**5)** Məqsəd Müsavat Partiyasının iqtidarla yanaşı, mənə, ailəmə və onu tənqid edən hər kəsə ləkə yaxma kampaniyasını davam etdirməsidir. Sadəcə, ayıbdır!!!

DİN-in mətbuat xidmətinin əməkdaşı Orxan Mənsurzadə isə məhbus müsavatçının dediklərini təkzib edib və əsassız adlandırıb.

❑ KƏNAN

# Məhkəmədə jurnalistə qarşı kobudluq

**Aprelin 23-də Bakı Ağır Cinayətlər Məhkəməsində Suriyada döyüşməkdə, terror qruplaşmasının üzvü olmaqda ittiham edilən şəxslərin mühakiməsi zamanı məhkəmə nəzarətçiləri reportyorlara qarşı kobudluq edib, onların peşə fəaliyyətlərini sərbəst şəkildə həyata keçirməsinə imkan verməyiblər.**



Cavanşir Abbaslı

Bu barədə musavat.com-a "Yeni Müsavat" qəzetinin reportyoru Cavanşir Abbaslı məlumat verib.

Jurnalistin dediyinə görə, aprelin 22-dən etibarən Bakı Ağır Cinayətlər Məhkəməsində yeni rejim tətbiq edilib, jurnalistlərə mane olurlar: "Aprelin 22-də də məni zaldan zorla çıxardılar, itələdilər, kobudluq etdilər, şəkil çəkməyimə mane oldular, fotoaparatımı aldılar. Bu gün (aprelin 23-də) isə qaba şəkildə qolumdan dartıb bayıra çıxardılar, işləməyimə imkan vermədilər".

C.Abbaslı bu qədər qaba rəftarın səbəbini anlamadığını deyir.

Bununla belə, ehtimal olunur ki, son günlər məhkəmə proseslərində ifadə verən müttəhim və şahidlərin ifadələrində hüquq-mühafizə orqanlarının işinə, xüsusilə də ibtidai istintaq zamanı yol verilmiş qanunsuzluqlara dair fikirlər bu cür tədbirlər görülməsinə səbəb ola bilərdi.

❑ Musavat.com

YENİ MÜSAVAT
N 87 (6115) 24 aprel 2015

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan professor Kamil Vəli Nərimanoğluna mükafat verib. "Başarı ödülü" adlanan təltif Ankarada baş tutub. Kamil Vəli Nərimanoğlu Türkiyənin öndə gələn universitetlərindən birində-İstanbul Aydın Universitetində işləyir.**



# Kamil Vəli Nərimanoğlu Ərdoğanla görüşündən danışdı

## "Başarı ödülü" alan professorla Türkiyə prezidenti arasında maraqlı söhbət olub

Professor K.V. Nərimanoğlu Azərbaycanın görkəmli ziyalısı, ictimai-siyasi xadimidir. Elçibəy iqtidarı dövründə baş nazirin müavini postunu tutub.

K.V. Nərimanoğlu Türkiyə prezidenti ilə görüşü barədə fikirlərini bizimlə bölüşüb.

**Kamil Vəli Nərimanoğlu bildirdi ki, belə bir mükafata layiq görülməsi onun üçün gözlənilməz olub:** "Məsələn, mən rəsmi Azərbaycandan heç bir mükafat gözləmirəm. Çünki müxalif mövqedə olduğumuz, Əbülfəz Elçibəy iqtidarında işlədiyimiz üçün bizi sanki düşmən siyahısına salıblar. Qara siyahıya salındığımız üçün nə bizi televiziya göstərə bilir, nə bir yazımızı verə bilirlər. Rəsmi Azərbaycan bizdən, biz də rəsmi Azərbaycandan əlimizi üzmüşük. Amma Azərbaycan dövləti və xalqı bizim üçün doğmadır. Türkiyəni də mən özümə vətən sayıram. Ona görə də heç kəsdən heç bir mükafat gözləntim olmayıb. Amma mənimlə bağlı bu addımı Türkiyə edibsə, bundan qürur duyuram. Mən indiyə qədər də Türkiyədə bir sıra ödüllərə layiq görülmüşəm. Türkiyə Cümhuriyyətinin şərəf və ləyaqət nişanını almışam. Bununla da çox böyük qürur duyuram. Eyni zamanda Türk Dil Qurumunun, TİKA-nın, başqa universitetlərin də mükafatlarını almışam. Bunlar da mənim üçün qürurvericidir. Cümhurbaşqanının təqdim etdiyi ödül isə mənə Həsən Calal Gözəlin rəhbərlik etdiyi Yeni Türkiyə Strateji Araşdırmalar Mərkəzi tərəfindən verilib. Ödül həm xaricdən, həm də Türkiyədən olan 6 nəfər alimə apardıqları elmi araşdırmalara, elmə xidmətlərinə görə verilib. Ödülü mənə prezident Rəcəb Tayyib Ərdoğan təqdim etdi".

**K.V.Nərimanoğlu onu da dedi ki, mükafat təqdim edilən zaman prezident Ərdoğanla beş-on dəqiqə söhbət etmək imkanı da olub:** "Prezident Ərdoğan Azərbaycanı sordu. Hətta zarafatla, yoxsa ciddi dediyini bilməsəm də qeyd etdi ki, mən də Azərbaycan türküyəm. Mən də dedim ki, biz bundan məmnuniyyət duyuruq, Azərbaycanda sizi çox sevirlər, Türkiyədəki prosesləri çox həssaslıqla izləyirlər, Azərbaycan xalqı Türkiyə ilə Azərbaycan arasında fərq qoymur. Çünki hər bir azərbaycanlının yaddaşında 1918-ci ildə ermənilərin Azərbaycan xalqını qırmasının qarşısını türk ordusunun olduğu qalır. Bu simvol silinməzdir, bizi bir-birimizə elə tellər bağlayıb ki, qırılmazdır. Mən Ərdoğanın "mən də Azərbaycan türküyəm" deməsini mən həm konkret mənada başa düşdüm, həm də Azərbaycanı da özünün vətəni saydığını ifadə etmək istəyi kimi başa düşdüm. Cümhurbaşqanı Ərdoğan məmnuniyyətlə mənə onu da dedi ki, sizin prezidentiniz və xanımı bugünlərdə Ümrə ziyarətində olub, bu məni çox sevindirdi, İlham Əliyevə telefon açıb onları təbrik edəcəyəm. Mən də dedim ki, bizi də sevindirdi. Allah hər kəsə bunu qismət etsin, hər kəsi İslam yolunda etsin. İslam dünyanın son dinidir, Quran dünyanın son ilahi kitabıdır. Qurana inanmaq, Quranı həyat tərzi kimi dərk etmək, yaşamaq həyatın zirvəsidir. Bilirsiniz ki, cənab Ərdoğan dini çox yaxşı bilən adamdır. O məni bir Azərbaycan vətəndaşı, ziyalısı olaraq Azərbaycan prezidentinin Ümrə ziyarətini etməsi münasibətilə təbrik etdi. Mən bunu Azərbaycan adına müsbət qiymətləndirirəm. Hesab edirəm ki, bu cür məsələlərdə iqtidar-müxalifət söhbəti olmur, ola da bilməz. "Erməni soyqırımı" məsələsinin gündəmdə olduğu bir vaxtda orada iqtidar-müxalifət söhbətindən çox, vətən söhbəti, vətənimizə qarşı qurulmuş məkrli oyunlara qarşı birgə mübarizə aparmaq kimi məsələlərin müzakirəsi vacibdir.

Ərdoğan mənim işlədiyim universitetdə işlərimin rahat olub-olmadığı ilə maraqlandı. Bildirdim ki, işimdən məmnunam, işlədiyim İstanbul Aydın Universiteti modern universitetdir, Azərbaycanla da ilişkiləri çox yaxşıdır. Verilən mükafatın isə bundan sonra çalışmamız üçün bir avans olduğunu Türkiyə prezidentinə bildirdim".

❑ **Etibar SEYİDAĞA**

# 10 mayda əfv olmayacaq

## Arzu Abdullayeva: "May ayının sonunda əfv olacağı gözlənilir"


Arzu Abdullayeva

**Avropa Oyunlarına qədər Azərbaycanda siyasi məhbus problemi həll olunacaqmı? Hazırda ictimaiyyəti maraqlandıran əsas suallardan biri də budur. İnsan Hüquqları üzrə Birgə İşçi Qrupun əsas fəaliyyət istiqaməti də hazırda bu məsələ üzərində qurulub. Əfv fərmanının mayın 10-da və ya mayın 28-də olacağı ehtimal edilir.**

**İşçi qrupun üzvü, Azərbaycan Milli Helsinki Komitəsinin sədri Arzu Abdullayeva** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, may ayının sonunda əfv olacağı gözlənilir: "Bu yaxınlarda İşçi Qrupunun və Əfv Komissiyasının birgə toplantısı oldu. Biz orada əfv məsələsini müzakirə etdik. Bildirdik ki, əfv mütləq olmalıdır, ancaq mayın 10-u üçün yəqin ki, çatmayacaq. Ayın sonunda isə əfv olacağı gözlənilir. Biz Əfv Komissiyası ilə dəqiqləşdirdik ki, mayın 10-da əfv olmayacaq. Son zamanlar İşçi Qrupunun tam heyətlə toplanması çətinləşib, gec-gec yığılırıq. Ancaq ayrı-ayrılıqda görüşlər keçirilir, məsələləri həll edirik. Son iki məhkəmə qərarı da bizi məyus etdi. Rəsul Cəfərova 6 il yarım və İntiqam Əliyevə 7 il yarım həbs cəzası verildi. Onlar bizim həmkarlarımızdır və dostlarımızdır, ona görə də bu qərardan şoka düşdük. Biz hazırda onları müzakirə edirik".

**Arzu Abdullayeva bildirdi ki, bu dəfə də səhhətində problemlər olan siyasi məhbusların işi gündəmdədir:** "Tofiq Yaqublunun, İlqar Məmmədovun, Leyla Yunusun əfvi gündəmdədir. Bu insanlar heç bir cinayət işləməyiblər, nə iğtişaş törədiblər, nə iğtişaşa səbəb olublar. Biz beynəlxalq təşkilatlarla da danışanda İlqar Məmmədovun, Tofiq Yaqublunun, Hilal Məmmədovun, Rəsul Cəfərovun və başqaları barəsində tam əminliklə bildiririk ki, onların heç bir günahı yoxdur. Leyla Yunus və Arif Yunus üçün də çalışırıq. Arif Yunus da MTN-də saxlanılır, səsi də çıxmır. Bu insanın nə günahı var? Biz siyahını göndəririk. Ancaq Azərbaycanda vəziyyət elədir ki, heç nədən əmin ola bilmirsən. Biz danışıqlar aparırıq, birgə işləyirik, razılıq alırıq. Ancaq qalır son məqam ki, onu heç kim dəqiq deyə bilməz. Ölkə başçısının nə qərar verəcəyini isə əminliklə demək mümkün deyil. Biz ümid edirik ki, adlarını çəkdiyimiz şəxslər də azadlığa buraxılacaq".

**Hüquq müdafiəçisi Səadət Bənəniyarlı isə bildirdi ki, İşçi Qrup hər gün iş başındadır və daxil olan ərizələrə baxır:** "İşçi Qrupu mütəmadi olaraq fəaliyyətini davam etdirir. Biz çalışırıq ki, daxil olan müraciətlərin hamısına baxaq. Bütün ərizələrə baxılır və müzakirəyə çıxarılır. Biz gözləyirik ki, may ayının sonunda əfv fərmanı veriləcək".

❑ **Nərgiz LİFTİYEVA**

# Zəlimxan Məmmədli "yaltaqlıq edir" ittihamına cavab verdi

## "Borçalı" Cəmiyyətinin sədri: "Mənim Gürcüstana buraxılmamağımda özümüzdən olan baltaların sapı görünməyə başlayıb"

**Son günlər "Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədlinin ünvanına yenidən ağır ittihamlar səsləndirilir. Təşkilat sədrinin Gürcüstana girişinin yasaqlanmasından sonra ittihamlar daha da artıb.**


Zəlimxan Məmmədli

Son olaraq, Gürcüstan Azərbaycanlıları Milli Konqresinin sədri, "Gürcü Arzusu" Koalisiyasının Siyasi Şurasının üzvü Əli Babayev mətbuatda Zəlimxan Məmmədlini Gürcüstan hakimiyyətinə yaltaqlanmaqda suçlayıb: "Suriya və ərəb ölkələrində baş verən proseslər Gürcüstana təsirsiz ötüşmür. Gürcüstanda çox ciddi narahatlıq var ki, həmin qüvvələr bu ölkəyə də ayaq aça bilər. Ona görə də məndə olan informasiyaya görə, "Elat Bayramı"nda və cəmiyyətin rəhbərliyinin o tədbirə apardığı insanlar arasında həmin qrupun nümayəndələri vardı. Gürcüstan hakimiyyəti "Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədlinin yox, elə adamların ölkəyə gəlməsini qadağan edib. Digər tərəfdən, Zəlimxan Məmmədli yaxşı fikirləşsin ki, niyə Gürcüstana qoymurlar. Bunun səbəbini özü bilər. Mən bilirdim ki, vaxtilə "Borçalı" Cəmiyyəti vardı, Gürcüstanda yaşayan azərbaycanlıların torpaq, məktəb, kənd adları və s. problemləri ilə maraqlanır, öz münasibətini bildirirdi. Zəlimxan Məmmədlinin rəhbərlik etdiyi indiki "Borçalı" Cəmiyyətində isə populist çıxışlardan başqa heç nə eşitməmişik. Üstəlik, sədr keçmiş Gürcüstan hakimiyyətinə yaltaqlanır. 2013-cü il sentyabrın 25-də bəyanat verərək, Saakaşviliyə dəstək verir, oktyabrın 3-də də İvanişviliyə təbrik yollayır. Bu siyasət bizə əl vermız. Biz istəyərdik ki, Gürcüstan azərbaycanlılarının lobbisi burda bir olsun, fəaliyyət göstərsin. Gürcüstanda olan hər bir prosesi izləsin və bizə dəstək olsun".

**Hazırda Türkiyədə səfərdə olan Zəlimxan Məmmədli "Yeni Müsavat"a açıqlamasında barəsində səslənən ittihamlara sərt cavab verdi:** "Bu yeni məsələ deyil. Mən "Borçalı" Cəmiyyətində sədr seçiləndən, bir destruktiv xətt bu cür sağlam olmayan işlərlə məşğuldur. Onun açıqlamaları bu xəttin həqiqətdən çox uzaq olduğunu, məqsədyönlü pozuculuq və "qara piar" kampaniyası apardığını göstərir. İttihamlar heç bir əsası olmamaqla qərəzlidir. Ciddi hüquqi xətalara yol verilir. Mənim Gürcüstana buraxılmamağımda özümüzdən olan baltaların sapı görünməyə başlayıb. Bu şəbəkənin özünüifşası soydaşlarımızın və millətimizin xeyrinə olacaq. Onun hansı əməl sahibi olduğunu vaxtilə silahdaşları olanlar bilir və artıq Kamil Əliyev öz prinsipial mövqeyini facebookda bildirib. Mən Bakıya döndəndən sonra daha ətraflı açıqlama verəcəyəm. Əksər uğurlarımızdan sonra bu insanlar məsuliyyət hissini itirərək ictimai rəyi çaşdırmağa çalışıblar. "Borçalı" Cəmiyyəti düz yoldadır və bu yolu ardıcıl olaraq davam etmək əzmindədir".

**Qeyd edək ki, ötən həftə ADP sədri Sərdar Cəlaloğlu da Z.Məmmədliyə qarşı bəzi fikirlər səsləndirmişdi. ADP sədri Z.Məmmədlinin Gürcüstana buraxılmaması ilə bağlı hazırlanan sənədə qol çəkməmişdi. S.Cəlaloğlu imza atmamasına belə aydınlıq gətirmişdi:** "Konkret olaraq, Zəlimxan Məmmədlinin harada olduğunu, nə işlə məşğul olduğunu bilmirəm. Bu adamı KXCP üzvü kimi tanıyıram və son zamanlarda da partiya fəaliyyətində onun iştirakını görmürəm. Onun başqa fəaliyyəti ilə tanış deyiləm. İmza qoymamağımın səbəbi də budur".

**"Borçalı" Cəmiyyətinin sədri Sərdar Cəlaloğlunun fikirlərinə də münasibət bildirdi:** "ADP-dən başqa bütün siyasi partiyalar Gürcüstan siyasi hakimiyyətinə Gürcüstana buraxılmamağımla bağlı müraciətə imza atıblar. Bunun təşəbbüskarı və təşkilatçısı Ümid Partiyasının sədr müavini Rüfət Muradlı olub. Burada həqiqəti söyləmişəm. Sərdar bəy bunu niyə aqressiv qarşılayıb, onu bilmirəm və o haqda nəsə söyləyə bilmərəm".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 87 (6115) 24 aprel 2015



# Kənddə islahatlar davam edir

Zamin HACI
zaminhaci@gmail.com

**Belorusların ümummilli lideri Lukaşenko təzə qanun qayırmışdır, buna əsasən işsizləri cərimə edəcəklər. Ta işsiz adam cərimə pulunu hardan alıb verəcəkdir, bunlar liderin vecinə deyildir.**

Burda bir haşiyə çıxaraq qeyd edim ki, Belarusun adı çıxıb, adın çıxınca canın çıxsın məsəli eynilə bunlara aiddir. Çünki hazırda dünyada Lukaşenkodan pis padşahlar var, ancaq Avropa ilə, Qərblə cici-bacı ola bilirlər, hətta oyun-moyun keçirdirlər. Ancaq fağır Lukaşenko (əlbəttə, "onu elə fağır ölsün" qarğışına da dəstək verirəm) haqqında çıxarılan embarqo qərarlarının sayını-hesabını itiribdir.

Öz şahidi olduğum bir olayı yazım. 2-3 il qabaq Norveçin paytaxtı Osloda mətbuatla bağlı tədbirdəydim, ora gələnlərdən biri də ağsaqqal belaruslu kişi idi, bu adam Belarusda müxalifət qəzetinin redaktoru işləyirdi. O, Lukaşenko rejimi haqda böyük bir kitab da yazmışdı, bir nüsxəsini mənə bağışladı. Sonra qayıdıb çıxıb getdi ölkəsinə. Mən kitaba baxdım, gözüm kəlləmə çıxdı: bizim Bakıda buna bənzər (prezidenti tənqid edən) kitab buraxmağımız nəinki mümkün deyil, hətta risk edib buraxsaq səhərisi gün türmədə olmağımız yüz faiz qarantiyadır. Amma yazdığım kimi, belaruslu ağsaqqal nəinki kitab yazmışdı, üstəlik, bu kitabı götürüb dünyanı gəzirdi.

İqtisadi baxımdan, korrupsiya səviyyəsi filana görə də gedib-gələnlər deyir ki, Belarus bizdən min dəfə yaxşı durumdadır. Əslində gedib-gəlməyə ehtiyac yoxdur, bizim marketlərdə babat, keyfiyyətli ağartı məhsulları elə Belarusdan aldıqlarımızdır. Yəni, südə su qatmırlar. Bəzən ölkənin halı belə detallardan görünür. Bizdə isə nəinki südə su, benzinə mazut, hətta adamlara da zibil qatırlar. Baxırsan ki, dünənə qədər xalis adam idi, bu gündən 30 faiz zibildir.

Nə isə, lirik-geopolitik haşiyəmiz getdi Minskə çatdı, qayıdaq mövzumuza. Mövzumuz isə işsizliklə mübarizə tədbirləridir.

Bu yaxında bir pis xəbər oxuduq, dilxor olduq. Yazmışdılar ki, Prezident Administrasiyası dövlət idarəçiliyini səmərələşdirmək üçün rayon icra hakimlərinin aqrar məsələlər üzrə müavini ştatını ləğv etmişdir. Belə baxanda məntiqi qərar idi, kənd təsərrüfatı darmadağın, çobanlar hamısı da Bakıda hasar qayırır, sağıcılar isə bədii gimnastika ilə məşğuldursa, icrabaşıya aqrar müavin nəyə gərəkdir? Nə olsun adı kənd rayonları gedir? İndi bizə icra başçısının hasarlama üzrə müavini, yaltaqlıq şöbəsinin müdiri, gənc sürtüklər bölməsinin şefi tipində vəzifələr lazımdır. İnək-qoyun, arpa-yonca getdi işinin dalıyca.

Ancaq xəbərin dilxorçuluq hissəsi o idi ki, işdən çıxarılan aqrar müavinlərdən biri deputat Ceyhun Osmanlının atası olmuşdu. Halbuki bəzi deputatların oğlu nazirdir. Bəs bu fağıra niyə müavin vəzifəsi çox görüldü? Bəs bu indi deputatxanada düyməni necə bassın? Kənddən aqrar ata çolpa, dana kəlləsi, eşşək qanqalı bağlaması göndərməsə Ceyhun müəllim necə işləyəcəkdir? Gərək deputatlarımız Antey kimi arxası torpağa bağlı olsunlar. Ana vətəndən güc alsınlar.

Lakin sonradan sevindirici xəbər aldıq, məlum oldu dövlətçilik islahatları Ceyhun müəllimin atası Yunis müəllimin başında çatlamayıbdır. Onu təzədən işə qoyublar. Bu dəfə Göyçay rayon icra başçısının... Yox, gərək bunu olduğu kimi oxuyasınız, çünki mənim qələmim acizdir. Sitat: "Göyçay Rayon İcra Hakimiyyətindən bildirilib ki, Y.Osmanov hazırda icra başçısının iqtisadi məsələlər üzrə müavininin *(həmçinin Sosial-İqtisadi İnkişafın Təhlili və Proqnozlaşdırılması Şöbəsinin müdiri)* aqrar məsələlər üzrə müavini vəzifəsinə təyinat alıb". Müavinin müavini vəzifəsi bizdə təzə hoqqa deyil, bunu da biləsiniz. Vaxtilə H.Əliyev Nemət Pənahlını prezidentin müşavirinin müşaviri vəzifəsinə qoymuşdu.

Deməli, Ceyhun müəllimin kənd qatığı, çil toyuq yumurtası həmişəki kimi gələcəkdir, onun dairəsindəki seçicilər arxayın yatsınlar. Deputatınız acından ölməyəcəkdir, möhkəm olun.




# 24 apreldəki iki törənin bir gerçəyi

## Bu gün dünyanın gözü Çanaqqala və İrəvana dikiləcək; erməni təbliğat maşını, işğalçı ölkə öz əsas hədəfinə çata bilmədi; saxta soyqırım məsələsində ABŞ-ın ədalətli münsifliyi "əzabkeş xalq"ın sonuncu ümidini də dəfn etdi...

**Bu gün sivil dünya iki yubiley törəninə şahidlik edəcək. Biri sırf tarixi gerçəyə söykənən və həqiqi, digəri isə saxta və uydurma 100 illik yubileyə. Müvafiq surətdə Çanaqqala və İrəvandan bəşəriyyətə bir-birinə tam əks işarəli iki mesaj veriləcək - biri Xeyrə, xeyirxahlığa, insaniyyətə dostluğa, mehriban qonşuluğa çağırış, digəri isə Şərin diktəsindən yoğrulmuş və əbədi düşmənçiliyə, ədavətə, qonşu ilə sərhədlərin bağlı, münasibətlərin uzun müddətə korlanmış qalmasına yönəlik mesaj.**

Çanaqqalada Xeyrin işığına yığılanlar qarşıdurmasız, konfliktlərsiz bir dünyanın tərəfdarlarıdır. İrəvana - Şərin, iftiranın zülmətinə toplaşanlar isə dünyanın daim məkrlə, yalanlarla, parçalanmalarla üz-üzə qalmasını istəyənlərdir.

Doğrudan da axı, kim mane olur(du) "erməni genosidi" adlı iddianı konkret dəlil-faktlarla sübuta yetirməyə? Nə əngəl yaradır belə dəlil-sübutları (əgər varsa), Beynəlxalq Məhkəməyə təqdim edib də əldə hüquqi sənəd əldə etməyə?! Necə ki, yəhudi soyqırımı çox asanlıqla bu yolla öz təsdiqini tapdı. Hanı ermənilərin kütləvi öldürüldüyünü təsdiqləyən təkzibolunmaz faktlar, dinc ermənilərin basdırıldığı kütləvi məzarlıqlar? Ermənilərin 200 illik müttəfiqi olan Rusiyanın arxivlərində belə faktlar varmı?

Türkiyə 10 ildir bar-bar bağırır ki, arxivlərimiz açıqdır, siz də açın, məsləyə aidiyyəti olan üçüncü ölkələr də açsın və tarixçilərdən ibarət ortaq komissiya buna yekun qərar versin. Amma daşdan səs çıxır, Ermənistandan, onun havadarlarından yox. Əvəzində Serj Sərkisyan prezident Ərdoğanı 24 apreldə İrəvana dəvət edərək, "gəl sübutları" orada görəcəksən deyir. Hansı sübut? "Memorial" adlanan daş-mərmərdən düzəldilmiş büt-kompleksmi?..

Bişəkk, "soyqırımı" tanıyan ölkələrin də əlində qardaş ölkə əleyhinə, türk xalqı əleyhinə belə faktlar yoxdur. Dünya əsl gerçəyi də yaxşı bilir. Di gəl ki, uydurma məsələnin tezliklə tarixin arxiva verilməsində maraqlı deyillər. Çünki böyük regional dövlət kimi müsəlman Türkiyəsinin başı üzərində həmişə xristian Ermənistanın əli ilə "Domokl qılıncı" asmağa ehtiyac duyurlar.

Bunu erməni təhlilçiləri də etiraf edir. Məsələn, Ermənistan-İsveçrə dostluq qrupunun həmsədri Sərkis Şaqinyan hesab edir ki, Avropa Parlamenti, Avropa ölkələrini məsələdə qətiyyən Ermənistanın maraqları yox, öz siyasi-diplomatik maraqları düşündürür və ikitərəfli münasibətlərdən çıxış edərək də "soyqırım" qərarları qəbul edirlər.

Bunu Türkiyə və Ermənistandakı yubiley tədbirlərində fərqli təmsilçilik səviyyəsi başqa yandan təsdiqləyir: Çanaqqalaya daha çox ölkə lideri təşrif buyuracaq, nəinki İrəvana. Bunu Türkiyə diplomatiyasının saxta genosid mərasimlərinin effektini azaltmağa yönəlik ən ciddi uğuru saymaq olar...




Gözlənilən idi. Və nə yaxşı ki, dünyanın sayılıb-seçilən liderlərinin mütləq əksəriyyəti 24 apreldə İrəvanda olacaq Fransa, Rusiya, Serbiya, Cənubi Kipr prezidentləri kimi düşünmür. Çünki dünya indi daha praqmatikdir. Ən önəmlisi, onun arbitri rolunda olan super-güc ABŞ kifayət qədər obyektiv münasibət ortaya qoymaqla "əzabkeş xalq"ın son ümidini də basdırdı, saxta mərasimlərin dəyərini sıfra endirdi - tədbirə özünün maliyyə nazirini (!) və 1-2 ermənipərəst konqresmeni göndərməklə, uydurma məsələni tanımaqdan bir daha imtina eləməklə, prezidenti bir daha "soyqırım" deməməklə. Ermənilərə isə bu hava-su təki gərək idi. Olmadı. Alınmadı...

Söz yox ki, erməni məsələsinə bunca diqqətin kökündə xristian amili də dayanır. Unutmayaq, saxta iddianı tanıyanların hamısı, Livan istisna olmaqla, xristian ölkələridir. Həmçinin 1-ci Dünya savaşında ermənilələri Türkiyəyə qarşı öz əllərində alət edib bada verən xarici qüvvələrin hikkəsidir bədxah qonşulara qol-qanad verən. Politoloq Vəfa Quluzadə demiş, onlar 100 il öncə Türkiyədən aldıqları zopanı hələ də unuda bilmirlər. Nə vaxt unudacaqlar, bax, o zaman ermənilər də sakitləşəcək, öz qınına çəkiləcəklər.

Bu mənada eyni gündə olacaq iki yubiley tədbiri bir çox qənaətlərin altını cızdı və yeqin ki, yaxın perspektiv üçün Türkiyənin xarici siyasətində mütləq ciddiyə alınacaq. Bir daha bəlli oldu ki, uydurma məsələni tanıyan 21 ölkədən yalnız üçü *(Fransa, Rusiya, yunan Kipri)* ermənilərin yalançı həşirinə hələ də əhəmiyyət verməkdədir. Yerdə qalanlar vaxtilə necə tanımışdılarsa, eləcə də unudub gediblər. Prezidenti Ermənistana gedən Serbiya isə maraqlıdır ki, indiyədək saxta genosidi tanımayıb.

Əslində bunun da izahı var: rusları, fransızları, yunanları, serbləri və erməniləri Türkiyəyə qarşı tarixi ədavət, ortaq düşmənçilik və qısqanclıq, gözügötürməzlik hissləri, bir az da ortaq dini (pravoslav) amil birləşdirir. Serbiya üstəgəl, Balkan olayları, Ankaranın Kosovonun müstəqilliyini tanımasına, yunan Kipri şimal Kipr məsələsinə görə Türkiyədən yanıqlıdır. Rusiya və Fransanın maraqları da bəlli.

Ona görə də bu 4 prezidentin İrəvanda Serj Sərkisyanla yan-yana olması təbiidir *(Qəribədir ki, Serbiyanın baş naziri ötən həftə Bakıda olmuşdu)*. Onları və təmsil elədikləri ölkələri yadda saxlayın. Cəmi 4 prezident + hərbi cani Serj Sərkisyan. Yaxşı "buklet"dir, deyilmi?

Yada istər-istəməz, ermənilərin törətdikləri mart, Xocalı soyqırımları, serblərin müsəlmanlara qarşı Serebrenitsa genosidi, yunanların türklərə, fransızların ərəblərə, rusların çeçen xalqına qarşı yaxın və uzaq tarixdə törətdikləri soyqırım vəhşilikləri düşür. Niyə də birgə olmasınlar - su-çuxur misalı...

**24 aprel yubileylərinin ən böyük tarixi dərsi də elə bundan ibarətdir - tarixdəki gerçək soyqırımların müəlliflərinə təzədən diqqəti fokuslamaqla.**

❑ **Zahid SƏFƏROĞLU**

Yeni MÜSAVAT
N 87 (6115) 24 aprel 2015

# Xocalı qatili Sərkisyan türk arxivlərini araşdırmağa qarşı çıxdı

**Bahar Muradova:** "Bizim sakit dayanmaq haqqımız yoxdur"
**Arzu Nağıyev:** "1915-ci il hadisələri ilə bağlı həlak olanların varislərinə başsağlığı vermək mesajını da düz dəyəndirməyən erməni lider özünü həmişə olduğu kimi, ərköyün uşaq kimi apardı"

**Ermənistan prezidenti Serj Sərkisyan saxta "soyqırım"ın 100-cü ildönümündə Türkiyənin bütün normal jestlərinə və tarixi faktları tarixçilərin öhdəsinə buraxmaqla bağlı çağırışlarına məhəl qoymayaraq sərsəmləməkdə davam edir. Əvvəlcə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın, daha sonra isə baş nazir Əhməd Davudoğlunun 1915-ci ilin faciəvi hadisələri zamanı həlak olanların nəvələrinə başsağlığı verməsi ermənilərin liderini bir az da cəsarətləndirib. O, "Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan güclü bir açıqlama versə, münasibətlərimiz normallaşa bilər" - deyə, "CNN Türk" telekanalına verdiyi müsahibəsi zamanı bildirib.**

Ardinca hiyləgər tövr nümayiş etdirən, Xocalı soyqırımının törədilməsində şəxsən iştirak etmiş, torpaqlarımızın işğalı ilə qürur duyduğunu yüksək tribunalardan belə dilə gətirmiş, üstəlik, erməni gəncliyinə xitabən Türkiyənin Ağrı bölgəsini Ermənistana qatmağı tövsiyə etmiş cinayətkar Sərkisyan dolayısı ilə bütün olanları unutmağa çağırıb. 1915-ci il hadisələri ilə əlaqədar bunları deyib: "Türklər və ermənilər eyni bölgədə yaşayır. Qonşu olmağı biz seçməmişik. Türklər protokolları imzalasaydı, hər şey çox fərqli olardı. Protokolları parlamentdən geri çağırdıq. Ancaq Türkiyə o protokolları imzalasa, biz də imzalayacağıq".

Erməni prezident Roma papasının və Avropa Parlamentinin "soyqırım" iddialarına dəstək verməsi mövzusunda "Euronews" telekanalına müsahibəsində də sərsəmləmələrini davam etdirib.

"Şübhəsiz ki, soyqırımın Türkiyə tərəfindən qəbul edilməsi ölkələrimizin yaxınlaşması üçün ən qısa yoldur. Mən buna çox inanıram. Əgər bu addım atılarsa, yəni səmimi şəkildə buna gedilərsə, Türkiyə və Ermənistan arasında əlaqələr ən qısa zamanda yeni və olduqca yüksək bir səviyyəyə qalxacaq"-deyə, S.Sərkisyan iddia edib.

**Jurnalistin "Türkiyə tarixçilərdən ibarət ölkələrarası bir komitənin qurulmasını təklif etmişdi. Buradan çıxan nəticələri də qəbul edəcəkdi. Bu təklifdə sizə görə yanlış olan nədir"- sualına cavabında erməni prezident öncə deyib ki, tarixçilərin verəcəyi qərarın bu məsələni çözəcəyi barədə fikri bölüşmür:** "İkinci tərəfdən, belə bir komissiyanın necə işləyəcəyini düşünmürəm. Türk tarixçilər, türk toplumu və avtoritetlərinin, erməni tarixçilər də erməni toplumu və avtoritetlərinin basqısı altında olacaq". **Sərkisyan yenə də arxiv materiallarını bir kənara qoyub Vatikanın mövqeyinə istinad edib.** "Birinci Dünya savaşı boyu meydana gələn olaylarla bağlı ən yaxşı bilgiyə sahib olan Vatikan deyilmi: Vatikanda yaxşı təhsilli tarixçi qıtlığımı var? Bizə görə belə bir təklif həqarət anlamı daşıyır. Bu, erməni soyqırımının gerçəkliyini dartışmaqdır. Günün sonunda tarixçilər nə əldə edəcək? Neçə nəfərin öldüyü barədə bilginimi?


Bahar Muradova


Arzu Nağıyev

1,5 mln. insanla 1 milyon 449 min nəfərin ölməsi arasında önəmli bir fərq varmı?" Göründüyü kimi, Sərkisyan hətta dünya ermənilərinin sayı qədər ermənininin "soyqırım"a məruz qaldığını qırmızısifətliklə iddia edir. Bu isə Ermənistanın nə Türkiyə, nə də Azərbaycanla münasibətlərində pozitiv mövqe sərgiləyəcəyi barədə ümidləri birdəfəlik aradan qaldırır. Sərkisyanın sonuncu silahı olan "soyqırım"dan onun imtinası mümkünsüzdür. Əgər buna gedərsə, dərhal hakimiyyətini itirər. Qarabağın azadlığı kontekstində yanaşdıqda bu gedişlə erməni hakimiyyətinin konstruktiv mövqe sərgiləyəcəyi də mümkünsüz görünür.

Azərbaycan hakimiyyəti də dəyərləndirməyin tərəfdarıdır və bu mübarizədə Türkiyə ilə bir səngərdə olmağın alternativini görmür. **Milli Məclis (MM) sədrinin müavini Bahar Muradova** ermənilərin qondarma "soyqırımı" tanıtdırmaq istiqamətində apardığı işin qarşısını almaq üçün səylərin gücləndirilməsinin vacibliyini qeyd edib. (gün.az) Vitse-spiker bildirib ki, bir sıra Avropa dövlətləri hələ də Çanaqqaladakı məğlubiyyətlərini həzm edə bilmir və bunun əvəzini Türkiyədən çıxmaq üçün yollar axtarırlar. "Etiraf edək ki, qondarma "erməni soyqırımı"nın tanıdılmasının qarşısını ala bilmirik. Proses başlanıb, davam edir. Bizim sakit dayanmaq haqqımız yoxdur.

Biz arxayınlaşmamalıyıq ki, bu tanınma heç də hüquqi nəticələrə gətirib çıxarmayacaq. Bir gün bu da baş verə bilər. Biz buna hazır olmalıyıq. Düzdür, bununla Türkiyəni çökdürmək olmaz, Türkiyə heç zaman çökməyəcək. Amma biz bu proseslərdə birgə və daha güclü mübarizəmizi davam etdirməliyik".

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a Sərkisyanın sərsəmləməsini şərh edərkən bildirdi ki, Ermənistan prezidenti "Euronews"a müsahibəsində yenə də həmişə olduğu kimi iddialı, məntiqdən uzaq , faktlara söykənməyən bəyanatlarla çıxış etdi:** "Əsas məqamlardan biri kimi yenə də tarixçilərdən təşkil edilə biləcək bir komissiyanın yaradılması və onun qondarma " erməni soyqırımı" məsələsinin araşdırılmasının, arxivlərin açılmasının əleyhinə olmasıdır. Arqumenti də o oldu ki, bu komissiya hər iki dövlətin nümayəndələrindən təşkil edilsə, birgə fəaliyyət göstərə bilməz və guya müxtəlif təzyiqlərə məruz qalacaq. Çox maraqlıdır ki, Sərkisyan, ümumiyyətlə, Birinci Dünya müharibəsinin tarixinin məhz Vatikan tərəfindən araşdırılmasına daha çox önəm verir. Vatikanın da bu məsələlərdə qərəzli mövqeyi məlumdur. Eyni zamanda Sərkisyan "soyqırım qurbanlarının"anılmasından, belə bir hadisələrin tarixdə təkraralanmaması üçün "qeyd edilməsi"ndən danışır". **A.Nağıyev Sərkisyana onun qatil olduğunu xatırlatdı:** "Dağlıq Qarabağ ərazisində əlləri qana bulanmış və qanunsuz hərbi birləşmələrin səhra komandirlərindən təşkil edilmiş siyasi bir rəhbərliyin liderinin bu sözləri deməyə heç haqqı yoxdur. Bundan başqa, Sərkisyan Türkiyə prezidenti Ərdoğanın üzr istəməsi və s. kimi cəfəng fikirlər bildirir. Guya bu baş verərsə, iki dövlət arasında diplomatik əlaqələr və bundan irəli gələn anlaşmalar bərpa olunar. Məlumdur ki, bu da boş xülyalardır. Türkiyə öz tərəfindən bütün təklifləri edib və adekvat bir cavab almayıb. Hətta baş nazir Davudoğlunun 1915-ci il hadisələri ilə bağlı həlak olanların varislərinə başsağlığı vermək mesajını da düz dəyəndirməyən erməni lider özünü həmişə olduğu kimi, ərköyün uşaq kimi apardı".

# Prezidentlərin İrəvan səfəri ərəfəsində politoloqdan ciddi xəbərdarlıq

**Vəfa Quluzadə:** "Müharibə başlayan kimi tək Gümrüdəki rus hərbi bazası yox, şimal sərhədimizdən qoşun gələ, yaxud Xəzərdə olan Rusiya Hərbi Donanması hərəkətə keçə bilər"


Vəfa Quluzadə

**24 apreldə Ermənistanda keçiriləcək saxta "soyqırım" törəninə ATƏT-in Minsk Qrupunun iki həmsədr ölkəsinin lideri də qatılacaq. Rusiya lideri Vladimir Putin və Fransa prezidenti Fransua Ollandın işğalçı Ermənistanda qurulacaq ağlaşma şousunda iştirakı ətrafında ən müxtəlif şərhlər verilir. Lakin hesab olunur ki, bu iki lider Türkiyəni və Azərbaycanı sakitləşdirmək, həmçinin Qarabağ məsələsinin həllində maraqlı olduqlarını nümayiş etdirmək üçün bəzi addımlar ata bilərlər. Ollandın Bakıya səfəri də gözlənilir.**

Eyni zamanda bu arada Rusiya XİN başçısı S. Lavrov Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun may ayında Moskvaya səfər edəcəyini də bildirib. "Fikrimcə, artıq problemin həllinin vaxtı çoxdan yetişib" - Lavrov deyib. Fransa prezidenti isə aprelin 24-də "erməni soyqırımı"nın 100 illiyinə həsr edilmiş mərasimlərdə iştirak etmək üçün İrəvana səfəri zamanı Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasını müzakirə etməyə hazırlaşır. Virtualaz.org da Fransa diplomatik qaynaqlarına istinadən xəbər verir ki, Ollandın səfər proqramına Rusiya prezidenti Vladimir Putin və Ermənistan prezidenti Serj Sərkisyanla ikitərəfli görüşlər keçirərək münaqişənin nizamlanmasını müzakirə edəcək. Qeyd edək ki, Fransa prezidenti Fransua Olland ötən ilin noyabrında Yelisey sarayında Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil etmişdi. O görüşdən sonra Sərkisyan növbəti görüş vaxtının 2015-in sentyabrı olacağını anons etmişdi. Lakin hər an müharibənin alovlanması ehtimalı beynəlxalq gücləri alternativ axtarışı ilə üz-üzə qoyub.

**Politoloq Vəfa Quluzadə ABŞ və Türkiyə prezidentlərinin bölgəyə səfərlərinin irəliləyişlərə gətirib çıxaracağına, yaxud Ollandla Putinin Qarabağ məsələsini ciddi müzakirə edəcəyinə inanmır. Eyni zamanda Fransa prezidentinin Bakı səfərinin də mühüm irəliləyişlərə səbəb olacağını güman etmir:** "Mən hesab edirəm ki, Ollandın Azərbaycana səfəri yalnız diplomatik baxımdan Qərbin Cənubi Qafqaza marağını nümayiş etdirməsidir. Qarabağ məsələsinin həlli isə Rusiyanın siyasətində hansısa bir dəyişiklik olacağı təqdirdə mümkündür. Əgər belə bir dəyişiklik görünsəydi, biz onu bilərdik. Gərginlik hər gün var, cəbhə xəttində mütəmadi şəkildə atəşkəs pozulur. Ona görə də inanmıram ki, Olland Qarabağ məsələsində Putinlə hansısa bir razılığa gələ bilər. Üstəlik də səfərin gündəliyi artıq məlumdur. Ollandla Putin gəmilərin taleyini müzakirə edəcəklər. Əvvəldən bəyan edilib ki, bu şəraitdə gəmilər Rusiyaya verilə bilməz. Həmin gəmilərin ödəmə pulu, cəzalar məsələsi və digər məsələlər müzakirə mövzusu olacaq. Mən inanmıram ki, prezidentlə Qarabağ məsələsini "soyqırım"ın 100 illiyi vaxtında müzakirə etsinlər. Eyni zamanda "soyqırım" iddialarının artması ilə əlaqədar Türkiyə-Ermənistanla münasibətləri daha da gərginləşib. Odur ki, perspektivdə işıq yolu görünmür".

**V.Quluzadə Putin və Ollandın Azərbaycan və Ermənistan prezidentlərini bir araya gətirəcəyini də güman etmir:** "Hansısa təmaslar olsa belə, yenə də böyüklərin siyasətində dəyişiklik olmasa, ciddi irəliləyişlər olmayacaq. Qərbin postsovet ölkələrinə gəlib bizdən neft-qaz almaqdan, tranzit kəmərləri çəkməkdən və öz yüksək standartlarını tələb etməkdən başqa biz onların ayrı bir işini görmürük. Azərbaycan digər postsovet ölkələri ilə müqayisədə xeyli inkişaf edib, amma Qərbin mövcudluğu hiss olunmur". **Son günlər düşmən ordusunun özü də Qarabağ cəbhəsindən deyil, Ermənistan ərazisindən, özü də həmsədr ölkələrin İrəvana səfəri ərəfəsində davamlı şəkildə mövqelərimizə həmlələr etməsini şərh edən V.Quluzadə bildirdi ki, cəbhədəki gərginlik ermənilərin "soyqırımı" bu şəkildə qeyd etmək cəhdindən başqa bir şey deyil:** "Azərbaycanı daim təzyiq altında saxlamaq istəyirlər. Azərbaycan unutmamalıdır ki, Qarabağ münaqişəsi yenidən alovlana bilər. Sözsüz ki, burada Rusiya iştirak edəcək, o halda Azərbaycan yeni rayon itirə bilər. Nəticədə də bu, Azərbaycan iqtidarına böyük bir təhlükədir". **Politoloq Rusiyanın növbəti müharibəyə qoşulmayacağı, Ermənistanın arxasında dayanmayacağı barədə Moskvadan gələn mesajları ciddi saymır:** "Bu mesajlar ciddi mənbələrdən gəlmir. Elə isə Putin, yaxud onun sözçüsü Peskov bu barədə bir dəfə bəyanat versin. Bütün bunların hamısı boş-boş söhbətlərdir. Rusiya ilə Ermənistan arasında hərbi müqavilələr var, həmin müqavilələr işə düşəcək. Azərbaycana təhdidlər daim olacaq. Çünki Moskva Azərbaycandan gözünü çəkməyib. Rusiya istəyir ki, biz könüllü surətdə Avrasiya İttifaqına daxil olaq, Avropaya inteqrasiya fikirlərindən əl çəkək, birdəfəlik Qərblə əlaqələri pozaq, Ermənistan kimi bir dövlət olaq. Bu gün Azərbaycanın Qərblə əlaqələri xeyli soyuqdur. Ona görə də Rusiya burda təzyiqləri artırır, özü də hər bir cəbhədə".

**Ekspert güman edir ki, Ermənistan-Azərbaycan savaşı alovlandığı halda Rusiya müxtəlif istiqamətlərdən Azərbaycana müdaxilə edə bilər:** "Odur ki, Rusiyanın neytral qalacağı ilə bağlı deyilənlər yalnız bizim ictimai rəyə hesablanıb. Yəni guya Rusiyanın Azərbaycan torpaqlarının işğalına, Qarabağ probleminə dəxli yoxdur. Bundan başqa, onlar belə bəyanatlarla bütün günahı Azərbaycan iqtidarının üzərinə yıxmaq istəyirlər. Bəyanat verirlər ki, Rusiya qarışmayacaq, o halda Azərbaycan ictimai rəyi düşünsün ki, yaxşı, Rusiya qarışmayacaqsa, onda bu iqtidar niyə gedib torpaqlarımızı azad etmir. Yəni belə bəyanatlar təxribat məqsədilə səsləndirilir. Əslində isə müharibə başlayan kimi tək Gümrüdəki rus hərbi bazası yox, şimal sərhədimizdən qoşun gələ, yaxud Xəzərdə olan Rusiya Hərbi Donanması hərəkətə keçə bilər. Bunların hamısı bizə təhlükədir. Özü də artıq Rusiya böyük təcrübə qazanıb, hibrid müharibələrinə gedir, yəni elan etmədən. Rus qoşunu adı ilə yox, könüllülər adı ilə hərəkətə keçir. Eyni zamanda Qarabağ müharibəsinin alovlandırılması Ukraynadakı hadisələrin arxa plana keçirilməsi üçün yaxşı bir fürsət yarada bilər".

**"Ona görə də inanmıram ki, Olland Qarabağ məsələsində Putinlə hansısa bir razılığa gələ bilər"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 87 (6115) 24 aprel 2015



# Oğurlanmış qələbə...

**Hüseynbala SƏLİMOV**

**Seyyid Cəfər Pişəvəriyə həsr olunmuş verilişində yazıçı və jurnalist Həmid Herisçi mərhum atasından qalmış və özünün bu vaxta qədər qoruyub saxladığı bir neçə sənədi və bir ordeni göstərdi - "21 Azər" ordenini...**

O an mən dəhşətli bir qibtə hissi duydum. Tarixə belə münasibət məni kövrəltmişdi. Ürəyimdən qəribə nisgil keçdi... Bircə anlığa 21 Azər və 1988-93-cü illər hərəkatları arasında paralellər aparmaq istədim...

Qəribədir, 21 Azər hərəkatı da məğlub olmuşdu. Bu hərəkatın fədakar insanları min bir əziyyət çəkmişdilər, bu insanlar faktiki olaraq böyük siyasi, bəli, çox böyük siyasi oyunların girovu olmuşdular...

Amma peşman olmamışdılar. Sınmamışdılar. Müxtəlif yerlərə səpələnmiş və müxtəlif talelərı bölüşmüşdülər, amma o böyük gün haqqında xatirəni yaddaşlarından silməmişdilər...

Birdən-birə bunları niyə xatırladım? Gözüm şəhərdə həmişə köhnə müxalifətçiləri axtarır. Əvvəllər onlara hərəkatçılar da deyirdilər. Onların bir hissəsi indi müxtəlif partiyalardadır. Bəzisi funksionerə, bəzisi də fəala çevrilib - bir hissəsi demək olar ki, partiyalarda "məskunlaşıb", bir hissəsi isə tez-tez oralara baş çəkir... Amma mənim belələri ilə işim yoxdur. Ona görə ki, bu adamlar artıq bir az "başqalaşıblar", maneralar dəyişib, davranış dəyişib və bir az süni, rəsmi xarakter alıb, elə münasibət də daha əvvəlki münasibət deyil.

Məni o hərəkatçılar maraqlandırır ki, onlar müxtəlif səbəblərdən proseslərdən uzaqlaşdılar - kimisi böyük uğursuzluqları rahatlıqla yaşaya bilmədi, kimini dolanışıq qayğıları ağuşuna aldı, kimi də yeni yaranan partiyalarda özünə yer tapmadı, hərəkatdakı münasibətləri bu partiyalarda görə bilmədi...

Bilmirəm, nədəndir, gözüm şəhərdə həmişə belələrini axtarır. Bu yaxınlarda birini gördüm. Elə hazırlaşırdım ki, "Filankəs, necəsən..." deyim, o, iti addımlarla yanımdan sovuşub keçdi, hətta başını qaldırıb mənə baxmadı da...

Bir neçə dəfə belə olub... Səbəbləri haqqında çox düşünmüşəm... Bəzən ağlıma gəlib ki, bəlkə bu, tək mənə qarşı münasibətdir? Amma sonradan tanış-bilişdən soruşub öyrənmişəm ki, yox, bu adamlar bütün keçmiş tanışlarla - keçmiş hərəkatçılarla belədirlər...

Hiss olunur ki, onlar qaçmaq istəyirlər. Təkcə tanışlardan qaçmaq istəmirlər. Bu tanışları onlarla bağlayan o keçmişdən qaçmaq istəyirlər. Nədən bu keçmiş onları bu qədər sıxır? Nədən bu keçmiş bu qədər onların gözündən düşüb?..

Əvvəldə 21 Azər hərəkatı ilə bağlı kiçik xatırlama etdim. Bu hərəkat məğlub olmuşdu, məqsəd və məramına çatmamışdı, amma insanlar ona və onun ideallarına sayğılarını itirməmişdilər və ona bağlılıqları ilə fəxr edirdilər...

1988-93-cü illər ərzində baş verən proseslər mürəkkəb idi. Bunu etiraf edirik və həmişə bu mürəkkəbliklərin bir tərəfini dərk etməyə çalışırıq, ən azı özümüz üçün... Amma o illərin ideallarını yada salanda görürsən ki, o vaxtdan bu günə kimi baş verənlərin içində bir nəticə də var - Azərbaycan müstəqildir...

Daim o vaxtkı ideyaların və ideallarin ierarxiyasını cızmağa çalışıram və özüm üçün müəyyən etməyə cəhd edirəm ki, görüm, birinci yerdə nə idi, bəs ikinci yerdə nə vardı...

Mən bunu təxminən belə müəyyən edərdim. Birinci yerdə Azərbaycanın müstəqilliyi dayanırdı. İkinci yerdə Qarabağ idi. Üçüncü yerdə də demokratiya gəlirdi... Açığı, o vaxtkı hərəkatın və hərəkatçıların demokratiya və azadlıq potensialı məndə heç vaxt eyforik ümidlər yaratmırdı. Bəli, kortəbii demokratiyaya meyl vardı... Amma bu, demokratiya idi, yoxsa zəif anarxiya, bax, bunu birmənalı şəkildə deməyə çətinlik çəkirəm...

İnsanlar, bir çox hallarda özünü real siyasətə yaxın bilənlər, demokratiyaya elə də önəm vermirlər. Tarixdə bəlkə də yüz ildə bir dəfə siyasətçilər peyda olur ki, onlar həqiqətən də öz daxili motivasiyaları nəticəsində demokratik siyasət yürüdürlər. Qalanlar isə sadəcə, buna məcbur olurlar-cəmiyyətin nəzarəti onları buna məcbur edir, media məcbur edir, rəqibləri məcbur edir...

Qərəz, əksər siyasətçilər, yenə də deyirik ki, demokratiyanı elə də sevmirlər. Məhz buna görə də hətta ən demokratik ölkənin belə xarici siyasəti eybəcərliklərlə dolu olur, çünki burada cəmiyyətin nəzarəti yoxdur, yaxud da azdır, bura "realpoltiks" üçün əsl meydandır...

O vaxtın hərəkatçıları da özlərini daha çox "siyasətçi" hesab edirdilər. Ona görə də demokratiya onlar üçün heç də birinci yerdə deyildi... Amma müstəqil dövlət ideyası, Qarabağ onlar üçün çox irəlidə idi. İndi Qarabağ qaytarılmayıb. Amma Azərbaycan müstəqildir. Bəs köhnə hərəkatçılar nədən gileyli, nədən narazıdırlar?

Bəzən mənə elə gəlir ki, onların qələbəsini oğurlayıblar. Bu müstəqillik həqiqətən də onların qələbəsi idi. Qələbəsi oğurlanmış bu adamlar hesab edir ki, onların keçmişini oğurlayıblar. Ona görə də onlar hamıdan və hər şeydən qaçırlar - o keçmişi yada sala bilən hər şeydən...



# MTN narkobandanı yaxaladı

## 32 kiloqramdan artıq narkotik vasitənin daşınmasının qarşısı alınıb, 9 nəfər şübhəli şəxs qismində tutulub

**Milli Təhlükəsizlik Nazirliyi tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində İran İslam Respublikasından qaçaqmalçılıq yolu ilə, yəni gömrük sərhədindən gömrük nəzarətindən kənar keçirilərək Azərbaycan Respublikasının ərazisinə ümumilikdə 32 kiloqram 800 qramdan artıq narkotik vasitənin daşınmasının qarşısı alınıb, bu hüquqazidd əməllərin törədilməsinə görə 9 nəfər şübhəli şəxs qismində tutulub.**

MTN-in İctimai Əlaqələr İdarəsindən verilən məlumata görə, "İran-Azərbaycan" marşrutu üzrə narkotiklərin qanunsuz daşınmasında şübhəli bilinən Azərbaycan Respublikasının vətəndaşı - Abbasov Qabil Bəhram oğlu saxlanılıb, keçirilmiş baxış zamanı onun idarə etdiyi avtomobilin yük yerindən 220 qram heroin, 1 kiloqram 700 qram tiryək, 4 kiloqram 337 qram həşiş qətranı və 7 kiloqram 300 qram qurudulmuş marixuana aşkar edilərək götürülüb.

Digər əməliyyat-axtarış tədbiri nəticəsində Azərbaycan Respublikasının vətəndaşları - Ağayev Əlikram Məmməd oğlu, Əhmədov Tahir Xasay oğlu, Nuriyev Umud Hidayət oğlu saxlanılıb, baxış zamanı onlardan 9 kiloqram 900 qrama yaxın tiryək aşkar edilərək götürülüb. Müəyyən edilib ki, Əlikram Ağayev, Tahir Əhmədov, Umud Nuriyev və qeyriləri cinayət əlaqəsinə girərək qabaqcadan əlbir olan bir qrup şəxs halında həmin narkotik vasitəni İran İslam Respublikası istiqamətindən qaçaq yolla Azərbaycan Respublikasının Cəlilabad rayonunun Məlikqasımlı kəndinin ərazisinə gətiriblər.

Milli Təhlükəsizlik Nazirliyinin daha bir əməliyyat-axtarış tədbiri nəticəsində "İran-Azərbaycan" marşrutu üzrə narkotiklərin qanunsuz daşınmasında şübhəli bilinən Azərbaycan Respublikasının vətəndaşları - Əsədov Etibar Nazağa oğlu, Həsənov Toğrul Sübhəddin oğlu, Əliyev Anar Allahverdi oğlu və Nəcəfov Anar Himayət oğlu saxlanılıb, keçirilən baxış nəticəsində onlardan 4 kiloqrama yaxın tiryək və 3 kiloqram 860 qram qurudulmuş marixuana aşkar edilərək götürülüb.

Növbəti əməliyyat-axtarış tədbiri nəticəsində İran İslam Respublikasından qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasına narkotiklərin daşınmasında şübhəli bilinən Azərbaycan Respublikasının vətəndaşı - Məlikov Vurğun Nazim oğlu saxlanılıb, ondan 1 kiloqram 500 qramdan artıq tiryək aşkar edilərək götürülüb.

Faktlarla bağlı Milli Təhlükəsizlik Nazirliyi İstintaq Baş İdarəsi tərəfindən AR Cinayət Məcəlləsinin 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən narkotik vasitələrin qaçaqmalçılığı), 234.4.1-ci və 234.4.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda narkotik vasitələri əldə etmə, daşıma, saxlama və ya satma) maddələri ilə cinayət işləri başlanılıb. Abbasov Qabil Bəhram oğlu, Ağayev Əlikram Məmməd oğlu, Əhmədov Tahir Xasay oğlu, Nuriyev Umud Hidayət oğlu, Əsədov Etibar Nazağa oğlu, Həsənov Toğrul Sübhəddin oğlu, Əliyev Anar Allahverdi oğlu, Nəcəfov Anar Himayət oğlu və Məlikov Vurğun Nazim oğlu təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmənin qərarları ilə həbs-qətimkan tədbiri seçilib.

# Jurnalistin ölümündə suçlanan həkimə hökm oxundu - 2 il

## Vəkil hökmdən narazı qaldıqlarını və apelyasiya şikayəti verəcəklərini bildirib



**Aprelin 23-də Nəsimi Rayon Məhkəməsində Bakı Slavyan Universitetinin dekanı olmuş, tənqidçi Elnarə Tofiqqızının ölümü ilə bağlı açılan cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

E.Tofiqqızının həyat yoldaşı, jurnalist Anar Niftəliyevin vəkili Səməd Vəkilovun APA-ya verdiyi məlumata görə, prosesdə hökm oxunub. Hökmə əsasən, təqsirləndirilən Firuz İbrahimov 2 il müddətinə azadlıqdan məhrum edilib. O, cəzasını məntəqə tipli cəzaçəkmə müəssisəsində çəkəcək.

S.Vəkilov hökmdən narazı qaldıqlarını və apelyasiya şikayəti verəcəklərini bildirib.

Cinayət işinin materiallarına əsasən E.Tofiqqızının üzərində aparılan cərrahiyyə əməliyyatında iştirak edən anestezioloq Firuz İbrahimov Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə) və 320.1-ci (hüquq verən və ya vəzifədən azad edən sənədi saxtalaşdırma) maddələrinə əsasən təqsirləndirilir, onun barəsində başqa yerə getməmə haqqında məhkəmə qərarı var.

Qeyd edək ki, 1977-ci il təvəllüdlü E.Tofiqqızı ötən il sentyabrın 20-də Nəsimi rayonunda yerləşən "Medi Sina" tibb mərkəzində süd vəzi kanalının əməliyyatı zamanı vəfat edib.

Məhkəmə-Tibbi Ekspertizasının rəyinə əsasən müəyyən edilib ki, E.Tofiqqızı üzərində anestezioloq düzgün anesteziya əməliyyatı aparmayıb. Nəticədə xəstənin ağciyərinin funksiyası pozulub və o, tənəffüs çatışmazlığından vəfat edib.

Ötən il sentyabrın 25-də Nəsimi Rayon Prokurorluğunda faktla bağlı Cinayət Məcəlləsinin 314.2 (səhlənkarlıq - ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi açılıb.



# Şəkidə 24 yaşlı ana doğuş vaxtı ölüb

**Şəkidə ana ölümü faktı qeydə alınıb. Şəki Şəhər-Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, Qəbələ şəhəri Həzi Aslanov küçəsi, ev 18 ünvanında yaşayan, 1991-ci il təvəllüdlü, Aygün Famil qızı Kərimova aprelin 22-də günorta saatlarında Şəki Rayon Mərkəzi Xəstəxanasının (RMX) cərrahiyə şöbəsində qeyseriyyə əməliyyatı ilə doğuş keçirib.**

Doğuşdan sonra Aygün Kərimovanın vəziyyəti qəflətən pisləşib və o, saat 22:30 radələrində ölüb.

Hadisə ilə bağlı Şəki RMX-nin doğum şöbəsinin müdiri Ruziyə Hüseynova APA-ya bildirib ki, Aygün Kərimova aprelin 17-də 35 həftəlik hamiləlik, böyrək çatışmazlığı və yüksək arterial təzyiqlə xəstəxanaya daxil olub.

Xəstəyə lazimi bütün tibbi yardımlar göstərildikdən sonra əməliyyata qərar verilib.

Aprelin 22-də qeysəriyyə əməliyyatı ilə 35 həftəlik qız uşağı götürülüb. Əməliyyatdan 6 saat sonra Aygün Kərimovanın vəziyyətində qəfildən pisləşmə baş verib, müdaxilələrə baxmayaraq, onu xilas etmək mümkün olmayıb.

Bu A. Kərimovanın ikinci hamiləliyi olub. Bundan əvvəl o, Qəbələ RMX-nin doğum şöbəsində təbii yolla iki əkiz oğlan dünyaya gətirib. Faktla bağlı Şəki Rayon Prokurorluğunda araşdırma aparılır.

YENİ MÜSAVAT
N 87 (6115) 24 aprel 2015

**Roma papası, ardınca Avropa Parlamenti və Avstriya hökumətinin "erməni soyqırımı"nı tanımaqla bağlı bəyanatları Türkiyəyə qarşı böyük bir zərbə oldu. Bundan başqa, "soyqırımı" tanıyan və 24 apreldə İrəvana gedən Fransa və Rusiya prezidentlərinin hərəkətləri faktiki olaraq Türkiyəni küncə sıxışdırmaq, "erməni kartı" ilə Ankaranı zəif duruma salmağa xidmət edirdi. Baxmayaraq ki, məsələn, Rusiya son illərdə Türkiyə ilə çox yaxın tərəfdaşlıq edir və ciddi perspektiv layihələr üzərində işləyir.**

# ABŞ "ədalətli arbitr" rolunu ermənilərə qurban vermədi

## Dünyanın erməni yalanlarına dəstək verdiyi bir zamanda Vaşinqton növbəti dəfə erməniləri məyus etməklə Ankaraya dəstək oldu



Yalnız gözlənildiyinin və proqnozların əksinə olaraq ABŞ dövləti erməniləri növbəti dəfə məyus etdi. Baxmayaraq ki, dünyada ən güclü erməni diasporu məhz ABŞ-da yaşayır, hətta bir sıra ştatlarda erməni diasporunun gücü ilə "soyqırım" rəsmiləşib, lakin bütün bunlara baxmayaraq Vaşinqton hətta "100 illikdə" belə ermənilərin arzularını reallaşdırmadı. ABŞ-ın "ermənipərəst" hesab olunan Demokrat Partiyasının nümayəndəsi, prezident Obama 24 apreldə bu il də "erməni soyqırımı" ifadəsini işlətməyəcək.

Ağ Evdən bir neçə gün əvvəl beynəlxalq mediaya sızan bilgilərə görə, Barak Obama ənənəvi 24 aprel müraciətində "soyqırım" ifadəsi deyil, böyük fəlakət mənasına gələn "meds yegern" kəlməsindən istifadə edəcək. ABŞ bununla faktiki olaraq indi dünya meydanında sıxışdırılan, yalnız qalan Türkiyəyə böyük bir mənəvi dəstək vermiş olub. Hətta o qədər ki, ermənilər açıq şəkildə məyus olduqlarını gizlətmirlər. Halbuki Papanın və ardınca AP-nin məlum qərarları ermənilərə böyük həyəcan gətirmişdi. Ermənistan prezidenti Serj Sərkisyan isə Obamanın "soyqırım" ifadəsini işlətməməsinin ABŞ-ın "soyqırım"ı tanımaması anlamına gəlmədiyini (!?) bildirib. Sərkisyan deyib ki, Obama, sadəcə, "Türkiyənin qürurunu sındırmamaq üçün" bunu edib. Yeri gəlmişkən, aprelin 24-də İrəvanda keçiriləcək tədbirlərdə ABŞ-ı xəzinə naziri Jacob Lew təmsil edəcək.

Əlbəttə, ABŞ prezidentinin çıxışında istifadə etdiyi kəlmə hansısa hüquqi sənəd mahiyyətində deyil. Hazırda "erməni soyqırımı" qanun layihəsi növbəti dəfə Konqresin müzakirəsinə təqdim olunub. Yalnız bu qanunun qəbul olunması hüquqi və siyasi qərarlara səbəb ola bilərdi. Ancaq Obamanın seçdiyi ifadə onu göstərir ki, ABŞ hökuməti hələ də bu məsələdə keçmiş mövqeyini dəyişməyib və böyük ehtimalla hökumət bu qanunun qəbuluna qarşı olacaq. İkinci və ən mühüm olan isə ondan ibarətdir ki, Obamanın müraciətində "soyqırım" ifadəsi işlətməsi psixoloji amil mahiyyəti daşıyır. Saxta iddiaların 100 illiyi ilə bağlı Obamanın seçəcəyi ifadə dünyada ermənilər üçün böyük psixoloji dəstək ola bilərdi. Ancaq göründüyü kimi, ABŞ prezidenti ermənilərə bu fürsəti tanımaq istəməyib. Amerika həm də dünyadakı ədalətli arbitr rolunu ermənilərə görə itirmək də istəmir...

Kimsə deyə bilər ki, bu qərarın arxasında siyasi, strateji amillər dayanır, ABŞ bölgədə ən yaxın müttəfiqlərindən biri, türk dünyasının lider ölkəsi olan Türkiyəni itirməmək, NATO müttəfiqi ilə münasibətlərini saxlamaq üçün bu addımı atıb. Başqa versiyalar da mümkündür. Ancaq fakt odur ki, Türkiyənin son illərdə ən yaxın tərəfdaşı olan Rusiya, eləcə də Avropanın bir sıra ölkələri bunu nəzərə almadılar. Belə demək mümkündürsə, ABŞ siyasətində "erməni kartı" yenə də "ağır basmadı", Vaşinqton siyasi imicini saxta erməni iddialarına qurban vermək istəmədi. Belə baxanda indi ABŞ dünyada təklənən Türkiyənin yeganə sadiq müttəfiqidir. Hər nə qədər aralarında soyuq münasibətlər cərəyan etsə də.

❑ KƏNAN

# Suriya qaçqınları Bakıya gəlməyə çalışır

## "Qaçqınkom" xəbərsizdir; Dövlət Miqrasiya Xidmətindən isə məlumat almaq mümkün olmur



**Suriyada illərdir davam edən müharibə bu ölkənin yüz minlərlə vətəndaşlarının öz yurd-yuvalarından didərgin düşməsinə və digər ölkələrə üz tutmasına səbəb olub. Qanlı hadisələr davam etdiyi üçün bu başıbəlalı ölkədən qaçqın axını da davam etməkdədir. Suriyalı qaçqınların daha çox qonşu Türkiyəyə sığındığı bəllidir. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının bir müddət öncə yaydığı informasiyada deyilir ki, 100 minə yaxın suriyalı Türkiyəyə qaçıb. Türkiyə hökuməti ölkənin 4 əyalətində qaçqınlar üçün 7 düşərgə təşkil edib. İordaniya hökuməti ölkədə 150 min suriyalının sığınacaq tapdığını bildirib. 50 minə yaxın qaçqın Suriyadan Livan ərazisinə keçib. İrana da xeyli sayda suriyalı pənah gətirib.**

Bugünlərdə isə Suriya qaçqınlarının Bakıda da göründüyü barədə məlumatlar yayılıb. Qeyd edək ki, bir neçə ay öncə Türkiyə mediasında xəbər yayılmışdı ki, Suriyanın Aleppo şəhərindən gələn qaçqınlar Azərbaycanda məskunlaşmaq istədiklərini bildiriblər. Təxminən 300 ailənin belə bir istəkdə olduğu vurğulanırdı. Xəbərdə deyilirdi ki, bu xüsusda rəsmi Ankara Azərbaycanın Türkiyədəki səfirliyi ilə danışıqlar da aparır.

Bir neçə gün öncə Bakıda suriyalı qaçqınların müşahidə edildiyi barədə deyilənlərdən belə güman etmək olar ki, onlar həmin qaçqınlardır.

Azərbaycan Respublikası Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Elçin Qədimov "Yeni Müsavat"a açıqlamasında deyib ki, onlarda Azərbaycanda suriyalı qaçqınların olduğu barədə məlumat yoxdur. Çünki üçüncü ölkələrdən gələn miqrant-qaçqınların işləri ilə Dövlət Miqrasiya Xidməti məşğul olur: **"Bu məsələ Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin kurasiyasında olan məsələ deyil".**

Dövlət Miqrasiya Xidmətindən isə məlumat almaq mümkün olmadı.

Onu da qeyd edək ki, Cənubi Qafqaz ölkələri arasında Suriya vətəndaşları daha çox Ermənistana üz tuturlar. Buna əsas səbəb isə Suriyada çoxsaylı ermənilərin olmasıdır. Ermənistana gələnlər erməni əsilli Suriya vətəndaşlarıdır. Artıq Ermənistanın "Armavia" şirkəti keçən ilin avqustundan İrəvan-Hələb-İrəvan marşrutu üzrə Suriyaya müntəzəm uçuşlara başlayıb.

Hazırda "Armavia" Suriyaya həftədə bir dəfə uçuş həyata keçirir. Şirkətin qanlı döyüşlərin getdiyi bir ölkəyə aviauçuşlar təşkil etməsinin səbəbinə gəlincə, məqsəd Suriyadakı erməniləri oradan çıxarmaqdır. Suriyada erməni diasporunun üzvlərinin sayı 80-100 min nəfər təşkil edir. Onların 50 mini Hələbdə, qalanları isə Dəməşq, Latakiya, Kesabe və əl-Qamışlıda yaşayır.

Ermənistan hökuməti ölkəyə köçmək istəyən Suriya ermənilər üçün vətəndaşlıq alma prosedurunu da sadələşdirib. Suriyada baş verən son hadisələrlə əlaqədar minlərlə Suriya və Livan ermənisi vətəndaşlıq almaq xahişi ilə Ermənistan hakimiyyətinə müraciət etdiyi barədə işğalçı ölkənin Daxili İşlər Nazirliyi rəsmi məlumat da yaymışdı.

Ermənistan hökumətinin Suriya ermənilərinə vətəndaşlıq verməsində maraqlı olması isə onunla bağlıdır ki, işğalçı ölkədə əhalinin sayı sürətlə azalır. İqtisadi, sosial vəziyyətin ağırlığı ucbatından on minlərlə erməni hər il Ermənistanı tərk edir. Ermənistan hökuməti Suriya ermənilərinin hesabına əhalisinin sayını artırmaq istəyir. İşğalçı dövlətin Suriyadan köç edən erməni ailələrinin bir hissəsini işğal olunmuş Azərbaycan ərazilərində də məskunlaşdırdığı barədə informasiyalar var.

❑ Etibar SEYİDAĞA

# ABŞ-a çatmağımıza hələ çox var



Azər RƏŞİDOĞLU

**Azərbaycanın parlament respublikasına çevrilməsi təklifləri zaman-zaman səslənib. Ermənistanda da belə çağırışlar az olmayıb. Demokratiyanın inkişafı baxımından parlament üsul-idarəsi daha məqbul hesab edilir.**

Prezident üsul-idarəsi mövcud olan ölkələrdə demokratiya zaman-zaman deqradasiyaya uğrayıb. Düzdür, uğurlu "ABŞ modeli"də mövcuddur. ABŞ prezident üsul-idarəsinə malik olan və demokratiyanı qoruya bilən çox az saylı ölkələrdən biridir. Avropada, Fransa istisna olmaqla, əksər ölkələr parlament respublikaları mövcuddur. Monarxiya quruluşları da Avropada simvolik mahiyyət kəsb edir. Monarxların dövlət işlərinə qarışmaq imkanları yox dərəcəsindədir.

Azərbaycanın "ABŞ modeli" ilə müqayisə edilməsi də məqbul variant deyil. Belə ki, ABŞ fərqli millətlərin, irqlərin, dinlərin yaratdığı bir federasiyadır.

ABŞ-da prezidentin səlahiyyətləri xüsusilə də vətəndaş-cəmiyyət-dövlət münasibətlərinin tənzimlənməsində çox məhduddur. Hər bir ştatın öz konstitusiyası var. ABŞ prezidenti istədiyi vaxt konstitusiyaya istədiyi dəyişiklik və düzəlişləri edə bilmir. Məsələ ondadır ki, konstitusiyaya dəyişikliklər ümummilli səviyyədə qəbul olunduqdan sonra, bunun üçün isə senator və konqresmenlərin üçdə ikisi və ya xüsusi olaraq bu məqsədlər üçün çağırılmış Milli Konventin çoxluğu onların qəbuluna səs verməlidir, ştatların dörddə üçü tərəfindən ratifikasiya olunmalıdır. ABŞ 50 ştatdan və ölkənin paytaxtının yerləşdiyi Kolumbiya federal dairəsindən ibarətdir.

Deməli, hər hansı bir konstitusiya dəyişikliyinin qüvvəyə minməsi üçün onun ştatların ən azı 35-i tərəfindən ratifikasiya olunması lazımdır.

Bu isə çox çətin, mübahisəli məsələlərlə bağlıdır və demək olar ki, qeyri-mümkün bir şeydir. Ona görə də təxminən 230 il ərzində ABŞ Konstitusiyasına cəmi-cümlətani 27 dəyişiklik edilib. Azərbaycan isə 23 il ərzində konstitusiyamıza artıq 100-dən artıq dəyişiklik və əlavə edib. Fərq bu qədər sadədir.

ABŞ prezidenti nəinki nazirləri, hətta səfirləri belə özbaşına təyin edə bilməz. Müvafiq komitənin üzvü olan bir senatorun prezidentin irəli sürdüyü namizədin əleyhinə çıxması kifayətdir ki, o şəxsin siyasi karyerasında qara zolaq başlasın.

Azərbaycanda belə bir siyasi sistemin yaradılması zaman tələb edir. Odur ki, Azərbaycan kimi ölkələrdə parlament üsul idarəsinə keçmək üçün ciddi konstitusiya islahatlarına ehtiyac var. İndiyə qədər qeyri-məhdud səlahiyyətli prezidenti qeyri-məhdud səlahiyyətli baş nazirin əvəzlənməsi hələ islahat anlamına gəlmir.

Azərbaycanda öncəki konstitusiyaya görə, iki dəfədən artıq prezident seçilmək olmazdı. Lakin bu, o anlama gəlmirdi ki, Azərbaycan ABŞ qədər demokratik idi. Azərbaycanda konstitusiyanı dəyişmək yuxarıda adi bir haldır. Bu amil demokratiyaya ciddi təsir göstərir.

Türkiyənin prezidenti Rəcəb Tayyip Erdoğan "yerdəyişmə əməliyyatını" həyata keçirə bildi.

Amma o özü ilə birlikdə qeyri-məhdud baş nazir səlahiyyətlərini prezidentlik məqamına daşıdı. Ərdoğan statusunu yüksəltməklə yanaşı səlahiyyətlərini də qoruyub saxlaya bildi. Göründüyü kimi, mahiyyət eynidir, özü də həm Azərbaycanda, həm Ermənistanda, həm də Türkiyədə.

Məqsəd gerçək və formal hakimiyyətin bir əldə toplanmasının təmin edilməsidir.

Başqa sözlə desək, söhbət bütün hallarda qeyri-məhdud səlahiyyətlərin bir şəxsin əlində cəmləşdirilməsini təmin etmək, konstitusiyanın mahiyyətcə təftişindən gedir. Göründüyü kimi, Azərbaycanın ABŞ olmasına hələ çox var...

YENİ MÜSAVAT
N 87 (6115) 24 aprel 2015



# Bir Elzas şəhərində...

## Strasburq şəhəri "Yeni Müsavat" müxbirinin gözü ilə: "Əsəb olmayan bu şəhərdə..."

**Strasburqun mərkəzi sabahı kilsə zəngləri ilə açır. Xristian dünyasının memarlıq incisi Katedralın - (Notre Dame de Strasbourg) nəhəng astronomik saatı 6-nı göstərdimi, kilsə zəngləri işə düşür və gecə 12-yə qədər hər saat təkrarlanır. Gecə zənglər susur. Axı bura Avropadı və hər şey insanların rahatlığına köklənib.**

Səhər ilk açılan ərzaq mağazaları və Fransa mətbəxinin dadından doyulmayan un məmulatlarını, şirniyyatlarını satan kafelərdir. Şəhərdə Cafe Brant, Cafe Brogli, Cafe de l'Opera, Cafe Atlantico kimi daha çox kübar həyat tərzi sevənlərin seçimi ilə yanaşı, McDonalds və bu tipli yerlər də var. Küçələrdəki saysız-hesabsız kiçik kafelər də öz yerində. 7-8 avroya 2 bulka, 1 kofe almaq mümkündür. Səhər rasionunuza balaca meyvə salatı da əlavə etmək istəsəz, bu, 4-6 avroya başa gələcək. Dərsə, işə tələsənlərin çoxu bulka, ya da buterbrod alıb velosipedləri ilə yollarına davam edirlər. Uzun fransız çörəklərinin - azı 30-40 sm - içərisinə düzülən pendirli, ya sendviçli, pomidorlu, kahılı buterbrodların qiyməti 4 dollardan başlayır.

Fransanın bu kiçik şəhərində maşın azdır. Əhalinin çoxu hərəkət etmək üçün saat dəqiqliyi ilə işləyən ictimai nəqliyyatı - avtobus və tramvayları, bir də velosipedi seçir. Ən populyar nəqliyyat növü, deyəsən, velosipeddir. Ən müxtəlif təbəqələrin insanlarını velosipedlə görmək mümkündür. Qalstuklu məmurlar, rahat geyimli tələbələr, uşaqlarını bağçaya, məktəbə aparan valideynlər, hətta yaşlı nənələr, babalar. Elzaslılar - yerli əhali özlərini əyalətlərinin adı ilə adlandırır - sağlam həyat tərzinə üstünlük verirlər. Şəhərdə müvəqqəti yaşayanlar - tələbələr, iş üçün gələnlər də bu havaya uyur. Hər məhəllədə velosiped dayanacağı var. Səhər tezdən velosiped tapmaq o qədər də asan deyil - tələbat böyükdür. Özü varsa, deməli, yolu da var. Ancaq burada velosiped avtomobillərin yox, piyadaların yoluna ortaqdı. Səkilərin bir tərəfi onlar üçün ayrılıb. Fransızlar daha az təhlükəli variantı seçiblər. Piyadalar tez-tez velosiped yollarına keçir. Piyadaların yanına yaxınlaşanda velosipedçilər "aaz, keç də", "görmürsən mənim yolumdu" kimi hərbə-zorba cümlələri qurmurlar, zəng çalmaqla piyadanı xəbərdar edirlər.

Ancaq piyada zəngin səsini eşitməyə bilər. Çünki şəhərdə çoxları qulaqcıqla gəzir. Bir neçə il qabaq Böyük Britaniyada insanların nəyi ictimai yerdə ən mədəniyyətsiz davranış saydığını öyrənmək üçün sorğu keçirmişdilər. Fikri soruşulanların çoxu qulaqcıqdan gələn "dups-dups"u göstərmişdi. Qulaqcıqda musiqiyə yüksək səs verəndə yaxınlıqda dayanan insanın beynini həmən bu ritm "deşir", axı... Fransada yalnız qaradərililərin qulaqcıqlarından ətrafa səs yayıldığını gördük. Ərəb xanımlar da ərəb musiqisi ilə "hərəkət edir". Ətrafı çox narahat etməsələr, onları başa düşmək çətin deyil. Qəribsədikləri torpaqlarına onlar indi yalnız bu musiqi ilə "gedə" bilirlər...

Fransada qaçqın çoxdur. Elə Strasburqda da. Aralıq dənizini keçə bilənlər də bir ucdan gəlir... Avropalılar miqrant problemindən çox narahatdır. Fransa telekanalları Aralıq dənizində ard-arda baş verən gəmi fəlakətləri ilə bağlı gün boyu reportajlar verir. Xəbər proqramlarında fəlakətin özündən, nəticələrindən, quruya çıxanların yerləşdirilməsindən danışılır. Avropa bu problemə çözüm arayır. Avropa Şurasının yas sessiyanın gündəliyində də əsas mövzu məhz emiqrantlarla bağlıdır. Bütün sistemi insan amili, insan haqları prinsipi üzərində quran Avropa düzəninin pozulmasını istəmir. Bütün hallarda, qayda-qanun haqqında elementar təsəvvürü olmayan insanları öz cəmiyyətinə qəbul etmək asan deyil. Bu, bir şəkildə öz vətəndaşlarını narahat edə bilər, narazılıq artar. Gələnlər bir müddət təcriddə yaşamalı, onların tibblə, təhsillə bağlı problemi çözülməli, cəmiyyətə adaptasiyası mərhələli baş verməlidir. Çətin işdir. Ancaq Avropa ona pənah gətirənləri qapıdan qaytaracaq qədər ədalətsiz deyil. Ona bu işdə səbr arzulayırıq. Yaxın Doğunun, Afrikanın düzənə girəcəyi günlər hələ üfüqdə görünmür.

Elzaslıları qaçqınlar məsələsində xeyli dözümlü saymaq olar. Çeşidli rəngli insanlar Fransa cəmiyyətində qardaşca yaşayır. Burda insanların irqi, dini, dili eşqə, dostluğa sərhəd deyil. Hər addımda nümunələr görmək mümkündür. Ancaq dözümü bitənlər, səbri daşanlar da yox deyil. Strasburqun mərkəzi küçələrindən birində yaşlı bir fransız kişini dilənən ərəbə təpinən gördük. Yaşlı adam əlindəki çəliyi yerdə məzlumca oturan gənc ərəbə tərəf uzadıb israrla ondan "niyə işləmirsən", sualına cavab istəyirdi. Ərəb məzlumca susmuşdu. Suriyadan, İraqdan, Yəməndən, Misirdən, kim bilir bu yad torpağa haradan gəlib. Fransızcası olsaydı, bəlkə də o, Avropaya nə ittihamlar səsləndirər, ölkəsindəki qarışıqlığın səbəbini, gerçəkliyi necə anladardı... Tanrı heç kimi özgə qapısında başıaşağı eləməsin.

Fransada dilənənlər yalnız qoca qitəyə yeni gələnlər deyil. Fransız "bomj"ları şəhərin ən müxtəlif məhəllələrində görmək olar. Evsiz, işsiz bu insanlara dövlət ayda 700 avro pul verir, sığınacaq, yemək problemləri də yoxdu. Ancaq onlara "bomj" olmaq xoşdu - belə istəyirlər. Strasburqun küçələrini, məhəllələrini bir-biri ilə birləşdirən körpünün üzərində, ticarət mərkəzlərinin pilləkanlarında səfil-sərgərdan insanlar görünür. Bəzi yerlərdə özləri gözə dəyməsə də "iqamətgahlar"ı - 1-2 cındır örtü, sellofan torba, su şüşəsi görünür. "Bomj evləri"ni heç kim dağıtmır, harada olsalar, axşam yatmağa bura gələcəklər.

Bayaq yollardan danışdıq, ancaq bir müşahidəmizi deməyi unutduq. Strasburqda piyadalar yol hərəkəti qaydalarına o qədər də əməl etmir. Məsələn, yol piyadalar üçün bağlı olanda küçəni keçirlər, bir-birinə sarmaşıq kimi dolaşan tramvay xətlərinin üstündən adlayırlar. Əslində bunu maşınların azlığı ilə də izah etmək olar. Əgər yolda maşın yoxdusa, piyada nəyi, niyə gözləməlidir? Yolu illah ki piyada xəttindən keçmək məsələsinə də o qədər diqqət eləmirlər, yol boşdursa, hardan gəldi qarşıya keçirlər. Maşınlar isə sərt qaydalara tabedir. Heç bir maşın nə qırmızı işığı keçməz, nə də piyada yolda olanda piyada xəttinin üzərinə çıxmaz. Belə demək mümkünsə, Strasburqda yol hərəkəti "piyada hər zaman haqlıdır" prinsipi üzərində işləyir. Yol polisini görmək şərəfinə hələ nail olmamışıq. Polislər də 3-5 gündən bir gözə dəyir. 4 günlük gəzintidə ilk dəfə dünən Avropa institutları yerləşən ərazidəki "Oranjeri" parkında polis gördüm. Geyimi ilə seçilməsəydi, onu da parka istirahətə gələnlərdən biri saymaq olardı. Üzündə "bolşe" nədir, heç "menşe" zəhrimar da yox idi...





Bir neçə gündür hava əladı. Günəş səhər tezdən çıxıb ta axşama qədər şəhərin üzərində bərq vurur. Havanın temperaturu gündüz +18-22 arasında gəzişir, axşamçağı da +12-dən enmir. Külək də yox kimidir deyə, insanlar artıq yay libasındadır - burda şort, qısaqol köynək, yay ayaqqabısı dönəmi başlayıb artıq. Mərkəzdə turistlər çoxdur. Hava da əl verdiyindən hamının kefi kökdür - gəzənin də, turistlərlə canlanan şəhər ticarətçilərinin də. Kleberdə, ondan bir kvartal sonrakı Quttenberq meydanında, Katedralın önündəki kafe-restoranlar gün boyu dəfələrlə dolub-boşalır. Ən çox Almaniyadan və Uzaq Doğudan turistlər görünür. Almaniyadan şagirdlər bura tez-tez ekskursiyaya gəlir, deyəsən. Uzaq deyil ki... Əlini uzatsan Almaniyaya çatar. Strasburqla-Almaniyanın Kehl şəhərini körpü ayırır. Avtobus, sürət qatarı da yola çıxanların əmrinə müntəzir...






Kleberdə kitab yarmarkası keçirilir. Bu yarmarkaları açıq səma altında bukinist dükanları da adlandırmaq olar. Kitabçılar Fransanı kənd-kənd gəzib əhalidən kitab alır, sonra da onu Strasburqda aşağı qiymətə satır. Bəzən 300-400 kitaba 100-150 avro verən bukinistlər onları aşağı qiymətə satır. Həm özləri qazanır, həm də əhalini bilgiləndirmək, dünyagörüşünü artırmaq kimi çox xeyirxah bir işlə məşğul olurlar. Kitablar 0.50 sentdən başlayır. Burada nadir kitab nüsxələri, qədim əlyazmalar da tapmaq olar. Ümumiyyətlə, mövzu, janr qıtlığı yoxdur. Uşaqlar, böyüklər üçün nə desəz, tapmaq olar.



Axşama doğru küçə musiqiçilərinin "iş saatı" başlayır. Əsas məkanları Katedralın ətrafı, Kleberin, Quttenberqin tinləridir. Musiqi alətlərinin qabı onların həyat qaynağıdır. Bəzən ifalar elə gözəl, möhtəşəm olur ki, musiqiçilərin işsiz-gücsüz olmasına təəccüb etməyə bilmirsən. Kaş "küçə kvartet"inin ifasını sizə çatdıra biləydik... Hələ kilsənin önündəki trio, Lui Armstronqu usta şəkildə yamsılayan gənc və onun yaşlı saksafonçusu, şarmanka ifaçıları... Ancaq onların içərisində ən çox diqqətimizi çəkən özünün yaratdığı qəribə bir musiqi aləti ilə böyük bir kütləni heyran qoyan zərb ifaçısı oldu. İki sacı üzbəüz birləşdirib kənarlarında çəkiclə xırda batıqlar düzəltmişdi. Nə sehr idisə batıqların hər birinə toxunduqca müxtəlif səslər yaranır, usta əllərdən sakit, həzin melodiyaya çevrilirdi.

Axşam oldumu, Strasburqu bu xoş musiqilərin, bu əsəbsiz şəhərdə yaşayan, dincələn, qonaq gələn insanların qəhqəhəsi bürüyür. Fransada xoş ovqat yaradan bir də hər addımda "bonjur" və "bonsua" ilə qarşılanma, yola salınmadı. Hamı salamlaşır, bir-birinə xoşgəldin deyir. Təsadüfən göz-gözə gəldiyin insanlar belə təbəssümü, salamı əsirgəmir. İnsanlar həyata gülümsəyir. Fani olduğunu bilə-bilə.

**Gülümsəyin...**

**❑ Aygün MURADXANLI,**
**Strasburq**

# İŞİD-ə qoşulan 15 yaşlı şəkili terrorçulara yemək bişirirmiş

## Elvin Dursunəliyev: "Suriyadan tez qayıtmaq istəyirdim, sadəcə, sənədlərim özümdə olmadığına görə məcburən orada qalmışam"

**Aprelin 23-də Bakı Ağır Cinayətlər Məhkəməsində Suriyada döyüşməkdə ittiham olunan 10 nəfərlik dəstə üzvünün - Vilayət Həsənli, Malik Musayev, Samir Həşimov, Vasif Hacıyev, İlkin Babazadə, Mehman Balakişiyev, Azər Qəmbərov, Vüsal Bayramov, Vüqar Dursunəliyev, Elvin Dursunəliyevin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Virtualaz.org saytının xəbərinə görə, məhkəmə iclasına hakim Ramella Allahverdiyeva sədrlik edib.

Prosesdə təqsirləndirilənlərdən Şəki şəhər sakini, 1998-ci il təvəllüdlü Elvin Dursunəliyev ifadə verib.

**Elvin Dursunəliyev sərbəst ifadəsində Suriyaya döyüşməyə yox, oradakı müsəlmanlara kömək niyyəti ilə getdiyini deyib:** "Mən orada yemək bişirirdim, mətbəx işləri görürdüm, bazarlıq edirdim. İslam dininə ibadət edirəm. Suriyada heç bir silahlı birləşmədə olmamışam. Ora getməkdə məqsədim müsəlman qardaşlarıma kömək etmək olub. Heç bir qruplaşmaya, heç bir cinayətkar dəstəyə qoşulmamışam.

Təqsirləndirilən şəxslərdən atamdan başqa heç kimi tanımıram. Mənə irəli sürülən ittihamlarla özümü təqsirli bilmirəm. Suriyadan vaxtından əvvəl qayıtmaq istəyirdim, sadəcə, sənədlərim özümdə olmadığına görə məcburən orada qalmışam. Tək günahım ora getmək olub".

**Təqsirləndirilən şəxs dövlət ittihamçısının, vəkillərin və hakimin suallarını cavablandırıb. O, Suriyaya getməsindən anasının xəbərsiz olduğunu bildirib:** "Atamın Tehran Qayıbov adlı tanışı var. Onunla getdim. Atam və anam notariat kontorunda mənə Tehranla birgə ölkədən çıxmaq üçün sənəd verdilər. İstanbulda Mahmud adlı şəxslə görüşdük. 5-10 gün İstanbulda qalandan sonra Suriyaya getdik. Suriyada dini adı "Abu Fatimə" olan şəxsin yanında qaldıq. Sonralar Tehranın döyüşlərdə öldüyünü eşitdim. Bizi Suriyadan qovdular. Türkiyə sərhədini keçəndə isə saxlanıldım və Azərbaycana deportasiya olundum".

**Hakim təqsirləndirilən şəxsin atası Vüqar Dursunəliyevə iradını bildirib:** "Müharibə gedən bir ölkəyə 14-15 yaşlı uşağı necə göndərərlər? Düşünürdünmü ki, onun özünü yox, meyitini gətirə bilərdin oradan? Bu yaşda uşağı ora necə yola salmısınız? Bəs anası necə buna göz yumub? Adamın gözü ağrıyır bu uşağa baxanda. Bu uşağın həyatını niyə bu günə salmısınız?"

Maraqlıdır ki, V.Dursunəliyev hakimin bu sualını nədənsə cavablandırmadı.

**Hakim təqsirləndirilən şəxsin anası Dürdanə Dursunəliyevanın şahid qismində məhkəməyə dəvət olunduğunu deyib:** "Biz teleqram vurmuşuq, amma gəlməkdən imtina edib".

Bundan sonra Durdanə Dursunəliyevanın ibtidai istintaq verdiyi ifadə elan olunub.



**D.Dursunəliyeva ifadəsində ailəliklə İslam dininə ibadət etdiklərini göstərib:** "Üç oğlum var. Böyük oğlum Əhəd ibadət etmir, siqaret çəkir, içki içir. O, bizimlə birgə deyil, nənəsinin yanında yaşayır. Ortancıl oğlumuz Elvin uşaqlıqdan ibadətlə məşğul olub. Onun tərbiyəsi ilə atası məşğul olurdu. Elvin 15 yaşı olanda atası dedi ki, uşağı Türkiyəyə işləməyə göndərirəm. Mən də inandım. Oğlumun ölkədən çıxması üçün notarial qaydada sənədə imza atdım. Oğlumun Suriyaya cihada getməyindən xəbərim olmayıb. Əgər bilsəydim, getməyə qoymazdım".

Digər təqsirləndirilənlərdən Azər Qəmbərov qısa çıxış edərək İŞİD-in tərkibində vuruşmadığını və bunu sübut edən heç bir əsasın olmadığını məhkəmənin nəzərinə çatdırıb.

Özünü pis hiss edən təqsirləndirilən şəxs ifadəsini davam etdirə bilməyib. Məhkəməyə təcili tibbi yardım çağırılıb.

Məhkəmə prosesi aprelin 30-da davam etdiriləcək.

Onu da bildirək ki, təqsirləndirilən şəxslər məhkəmə prosesinin ilk günündən İslam dininin qanunlarından başqa heç bir qanun qarşısında mühakimə olunmayacaqlarını və məhkəmə boyunca susacaqlarını bildiriblər.

Qeyd edək ki, Milli Təhlükəsizlik Nazirliyi tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə, habelə tərbiyə etmək vəzifəsini daşıyan şəxs kimi yetkinlik yaşına çatmayan şəxsi ağır cinayətin törədilməsinə cəlb etmə və başqa hüquqazidd əməllərin törədilməsinə görə ümumilikdə 26 nəfər saxlanıb.

Bunlardan digər təqsirləndirilən şəxslər - Vilayət Həsənli, Malik Musayev, Vasif Hacıyev, İlkin Babazadə, Mehman Balakişiyev, Ruslan Mustafayev, Namiq Məmmədov, Fərid Muradov, Tural Həsənov, Elvin Əliyev, Tariyel Mustafayev, Azər Qəmbərov, Vüsal Bayramov, Samir Həşimov, Nicat Abbasov, Hüseyn Məmmədov, Ruslan Cəfərov, Sənan Baxışov, Eldost Quliyev, Məmmədşah Məmmədəliyev, Əhməd Həsənov və Maarif Mərdanov 2013-cü ildən 2014-cü ilin müxtəlif aylarınadək Suriya Ərəb Respublikasının ərazisində həmin dövlətin və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətində iştirak ediblər.

Vüqar Dursunəliyev tərbiyə etmək vəzifəsini daşıyan şəxs kimi yetkinlik yaşına çatmayan şəxsi ağır cinayətin törədilməsinə cəlb edib. Belə ki, Vüqar Dursunəliyev yetkinlik yaşına çatmayan oğlu, 1998-ci il təvəllüdlü Elvin Dursunəliyevdə radikal dini baxışların daha da möhkəmləndirilməsi məqsədilə onda Suriyada fəaliyyət göstərən qanunsuz silahlı birləşmələrin tərkibində iştirak etmək arzusu yaradaraq, Elvini həmin silahlı birləşmələrin tərkibinə qoşulmaqla ağır cinayət törətməsi üçün bütün nəqliyyat xərclərini ödəməklə Suriyaya göndərib.

15 yaşlı Elvin Dursunəliyev də 2013-cü ilin dekabrından 2014-cü ilin aprelinədək Suriya Ərəb Respublikasının ərazisində həmin dövlətin və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmənin fəaliyyətində iştirak edib.

# Mayamidə kasıb olsan...



**Samir SARI**

**Məşhur səyyah Tur Heyerdalın bu ifadəsini əvvəllər bir dəfə yazıda sitat gətirmişəm, indi daha bir dəfə təkrar etməyə ehtiyac var. Dünyanın demək olar ki, bütün materik, qitə, arxipelaqlarını gəzmiş, ölkələrin də tam əksəriyyətini dolaşmış bu məşhur səyyah yazdığı kitabların birində böylə bir müdrik söz işlədib: "Cənnət axtara-axtara dünyanı gəzən insanlar axırda onu tapırlar. Vətənlərinə qayıdanda".**

Mərhum səyyah belə deyərkən onu nəzərdə tutur ki, dünyanın ən dilbər guşəsinə getsən də, orda yaşasan da, lap, bizim kəndçilər demişkən, öz aşağı ətrafının kinetik enerjisiylə göyə çıxsan da, xeyri yoxdur, vətənin olmayan gözəl məkandan məmnun qalmayacaqsan, amma qayıdıb ölkənə gələndə görəcəksən ki, ən yaxşı yer buraymış.

Kişi bu işin uzmanıydı, türkün sözü, bildiyi bir şeylər vardı. Ona görə də onun sözünü gərək heç kəs, o cümlədən "bu ölkədən" haştağı yaradaraq, buralardan qaçıb getməyi təbliğ edənlər qəribçiliyə salmasınlar.

Başqa sözlə, başqa ölkələrdə heç də yel əsib, qoz tökülməyib, eləcə də hurilər, qılmanlar küçədə durub demirlər: "Ay qərib oğlan, canım sənə qurbandır, gəl bizdə qal, papamın evini adına keçirim, cipini də sən sür".

Yəni bu ölkədən çıxan kimi adam xoşbəxt olmur, ömründə görmədiyi əzab-əziyyətləri, məhrumiyyətləri, sıxıntıları çəkir. Güclü adamdırsa, dözür, durur, zəif adamdırsa, əli ətəyindən uzun şəkildə, suyu süzülə-süzülə qayıdıb gəlir, Heyerdal demişkən, öz cənnət vətəninə.

Bunu xaricdə çoxlu mühacir dost-tanışı olan və onların çəkdiyi əziyyətin 10-15 faizini bilən adam kimi yazıram. Məşəqqətli işdir.

Baxın, dünyada ölkəsindən bezən nə qədər adam var. Hamısı da Avropaya axışır. Amma tez-tez Aralıq dənizindən bəd xəbərləri gəlir. Olur ki, bərələri, gəmiləri suya gömülür, 500-1000 arası mühacir batır. Bu adamlar gəmiyə minəndə mənzil başına sağ-salamat çatmaq ehtimalının 50/50-yə olduğunu bilirlər, amma ölüm ehtimalı onları saxlamır.

Uzun sözün kəsəsi, insanlar bezən elə bir hala çatır ki, öz vətənlərini cəhənnəm hesab edirlər və başqa yerin hamısı gözlərinə cənnət kimi görünür. Amma cənnət hardadır? Aralıq dənizinin ılıq sularının dibində, İtaliya, Yunanıstan sahillərində cənnət nə gəzir? Ona qalsa, yunanlar özləri də getməyə yer axtarırlar.

Ona görə də gərək ölkəmizin "ölkəyə sadiq vətənpərvərləri" və "qıraq yerdə cənnət axtaran dönükləri" bu xüsusda dalaşıb söyüşməsinlər.

Gerçəklik bundan ibarətdir: bu ölkədən getmək istəyənlərin burda babat işləri, dolanışıqları, azadlıqları olsa, niyə getmək istəsinlər ki?

Getmək istəməyən gənc patriotların işi yaxşı gedir: YAP-ın üzvüdürlər, pis-yaxşı iş-gücləri, qazancları, gələcəyə yönəlik planları var, yeri gələndə minirlər VAZ-ı, alırlar yanlarına Gülnazı, basırlar qazı, ta niyə olsunlar narazı.

Əlbəttə, dünyanı gəzmək, görmək yaxşı şeydir və hamı bu işə həvəslidir. Amma yenə də hökumətsevər patriotlar bir neçə addım qabaqdadır. İndini bilmirəm, amma iki-üç il qabaq YAP-ın gəncləri ölkədə tutmaq olmurdu, ölkə-ölkə gəzirdilər, yeyib-içib əylənirdilər, sonra da ölkəyə qayıdıb vətənpərvərlik dərsi keçirdilər.

Hərçənd sonra gənclər xaricdə nə iş gördülərsə, nə qələt qarışdırdılarsa, bu cür lirik-patriotik-romantik-semantik səyahətlərə son qoyuldu. Ya da indi əl altından gedirlər, mediaya duy vurmurlar.

Bu üzdən gərək dünya ulduzları kimi günləri turnedə keçən, şeyxzadələr kimi villada yaşayan, gündə bir cip və müasir ziyalılar demişkən, civi dəyişən gənclər işsiz-gücsüz, yaşı keçən, öz ölkəsində gələcək görməyən kasıb gəncləri özlərinə bir gün ağlamaq üçün çabalayıb xaricə çıxmaq istədiklərinə görə danlamasınlar.

Belə vətən oğlu sevəndirlərsə, getmək istəyənlərin birinə gömrükdə iş düzəltsinlər, sonra görsünlər, o gənc ölkədən getmək istəyirmi, istəmirmi?

İşsiz olandan sonra adam istəyir Baham adalarında, Mayamidə yaşasın, iki aya canından da bezəcək, o cənnətməkan yerdən də. Əgər bir gün Sibirin 60 dərəcə şaxtasında, ya da 50 dərəcə istisi olan Omanda ona dolanışıqlı iş təklif eləsələr, qaça-qaça ora gedəcək.

İnsanlar əvvəlcə yaşamaq istəyir, sonra vətən haqqında pafoslu şeir demək, qeyrətli mahnı oxumaq.

Yeni MÜSAVAT
N 87 (6115) 24 aprel 2015




# İnsanlararası münasibətin keyfiyyət paradiqması

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**
**Rəcəb ayında yaşayırıq. Bu mübarək ayın mahiyyətini anlamaq üçün, əziz İslam Peygəmbərinin (s) bu mübarək ay haqqında xüsusi buyuruşlarına diqqət edək. Bunlarda rəcəb ayının əzəməti və hətta cahilliyə dönəmində insanlar arasında xüsusi məqamı haqqında çatdırışlar var.**

**Rəsuli-Əkrəm (s) buyurur:** "Rəcəb - "şəhrullahil-əsəmm"dir (Allahın "əsəmm" ayıdır). Və o səbəbdən onu "əsəmm" adlandırmışlar ki, heç bir ay onun əzəmətinə və böyüklüyünə çatmır (cahilliyə dönəmində rəcəb ayının "əsəmm" adlandırılması, o ayın haram, yəni müharibə qadağan olunmuş aylardan olması ilə bağlıdır). Cahilliyət dönəmində insanlar rəcəbə hörmət qoyurdular və İslam nur kimi saçdığı zaman onun hörmətini daha da artırdı".

Mübarək inancımız rəcəbə həqiqi qiymətini verir. Hədisin davamında Rəsulullah (s) buyurur: "Biliniz ki, rəcəb - Allahın ayı, şəban - mənim ayım, Ramazan - mənim ümmətimin ayıdır". Mübarək hədisin davamında rəcəb ayının orucunun İlahi razılığa yetişmək üçün bir vəsilə olması vurğulanır, bu orucun İlahi qəzəbin söndürülməsi, cəhənnəm qapılarının bağlanması üçün bir fürsət olması aşkarlanır: "Bəs hər kim rəcəb ayında bir gün oruc tutsa, İlahi rizvana müstəhəqq olar və onun orucu İlahi qəzəbi söndürər və Allah-Təala cəhənnəm qapılarından birini onun üzünə bağlayar".

İmam Sadiq (ə) buyurur ki, isti bir gündə oruc tutan və çox susayan hər bir kəsə Allah-Təala min mələyini vəkil edər, min mələyinə tapşırıq verər ki, getsinlər və o bəndənin üzünə əllərini sürtsünlər və onu müjdələsinlər. O bəndə iftar edən zaman Allah Təala buyurar: "Bəh-bəh! Nə gözəl ətir gəlir səndən". Və mələklərinə üz tutaraq söyləyər: "Ey mələklərim, şahid olunuz ki, mən mütləq bu bəndəmi bağışladım".

Mübarək hədisdən də görünür ki, bu mübarək aylarda oruc tutmağın əcri hesaba gəlməyəcək dərəcədə böyükdür. Bu da yaşadığımız ayın əzəmətindən xəbər verir.

## Cəhənnəm qapılarını bağlayaraq irəliləmək

Rəcəb ayı - belə bir aydır. Onun 1 gün tutulan orucu insanın Allah-Təalanın razılığına gəlib çatmasına səbəb olar. İnsan gerçəkdən 1 gün rəcəb əhli olsa, rəcəbdə layiq olmalı bir vəziyyətə yetişsə, bu kimi təsirləri var, bu kimi müəyyənləşmələri var öz müqəddəratı üçün. Xoş o adamın halına ki, günlər keçdikcə, cəhənnəm qapılarını bağlaya-bağlaya gedə bilib.

**Mübarək hədisin davamında bəlli olur ki, ən yüksək nəfəqə, sədəqə, ehsan, Allah yolunda xərcləmə belə, rəcəb ayının bir gününün orucunu üstələməz. Rəsuli-Əkrəm (s) buyurur:** "Əgər bir kəs bütün yerin qızılı qədər infaq etsə, onun (rəcəb ayının) bir gününün orucundan üstün olmayacaq".

İnsanın təsəvvür etməsi, ola bilsin, bir qədər çətin olsun. Necə olur ki, bu böyüklükdə infaqlar, sədəqələr 1 günün əvəzini vermir?! Ola bilsin, bu bir günün insanın ruhunda təsiri o qədər böyük olsun ki, bütün dünyanın varidatını kasıblara paylamaqla da bu ruhiyyəni əldə etmək mümkün olmasın...

**Rəcəb ayının orucu duaların müstəcəbliyinə səbəb olar. Dualar bu ayda qəbul olunar. Rəsuli-Əkrəm (s) buyurur:** "...hər vaxt gecə düşər (oruc tutan adamın) duaları müstəcəb olar: ya dünyada ona əta olunar və ya onun axirəti üçün toplanar". Mübarək hədisin davamında Rəsulullah (s) daha sonra 2, 3, 4 və 30 günə qədər rəcəb ayında oruc tutmağın savabını kamil surətdə buyurur.

## İnsaf amili

Rəcəb - bağışlanmaq ayıdır, mehribanlıq ayıdır. Ümumiyyətlə, mübarək İslam dini insanlararası münasibətə olduqca böyük əhəmiyyət verən İlahi dindir. İslam mətnlərinə nəzərə salsaq, görərik ki, insanlararası münasibət İslamın ən aparıcı xətlərindən biri olaraq keçir. Bu anlamda insan həyatının ən mühüm mövzularından biri də insanlarla davranışında insaflı olmaqdır.

Deyə bilərik ki, insanın dəyərini ən ciddi şəkildə müəyyən edən amillərdən biri insafdır. İnsanlar haqqında danışarkən, fikir yürüdərkən, insanın keyfiyyəti haqqında danışmaq istəyəndə ilk ağla gələn məsələlərdən biri həmin insanın insaflı və ya insafsız olmasıdır. İnsaf bir keyfiyyətdir ki, insan özündə inkişaf etdirə, təkmilləşdirə, lazımi dərəcəyə çatdıra bilər. İnsaf İslamın ən önəmli məsələlərindən biridir. Müsəlmanın, möminin, inanclı insanın xüsusi önəm verməli olduğu məsələlərdən biri məhz insafdır. Çünki bu olmayanda, iman, möminlik, dindarlıq çox nisbi, boş görsənir. Desək ki, İslamın ən bariz nümunələrindən biri insaflılıqdır, dəqiq ifadə etmiş olarıq.

## İnsaf - ağılın nişanəsidir

**Həzrət Əmirəlmöminin (ə) buyurur:** "İnsaf xislətlərin ən üstünüdür". İnsanın daxilində müxtəlif xislətlər mövcuddur. Onda ola biləcək bir çox keyfiyyət və xislətlərin içərisində ən alisi - insafdır.

Həzrət Əmirəlmöminin (ə) buyurur: "Bilin, hər kim camaata qarşı insaflı olsa, Allah mütləq onun izzətini artırar". İnsaflı davranmaqla izzətlilik arasında bir bağlantı var. İnsanın camaatla münasibətdə insaflılığı artdıqca, onun izzəti, əzizliyi də təbii olaraq artar.

Həzrət Əli (ə) digər mübarək bir hədisdə buyurur: "İnsanın ağıllı olmasına bu kifayətdir ki, o, özündən insaflı olmağı tələb etsin və insaflı olsun. Onun insaflı olmasına da bu kifayətdir ki, həqiqət ona məlum olanda, onu qəbul etsin".

İnsaf və ağıl arasında da buradan ciddi əlaqə meydana çıxır. Əgər insanın ağlı yerində olsa, düşüncə və təfəkkürlə yaşayışına nəzər salsa, insaflı olmağın zərurətini anlayar, özündən tələb edər ki, insaflı olsun, insafsızlığın aparacağı yolu başa düşər və özündən insaflı olmağı tələb edər. Eyni zamanda İmam Əli (ə) insafın açılışını da verir. Həzrət (ə) bildirir ki, insana həqiqət məlum olandan sonra onu qəbul etməsi - insafdır. Elə insanlar var ki, həqiqət ona məlum olsa da, elə dediyinin üzərində dayanar. İnsanlar da var ki, nə vaxt həqiqət onlara məlum olur, dərhal həmin həqiqəti qəbul edirlər. Səhv ediblərsə, səhvlərini düzəldərlər. Dediklərində, etdiklərində, davranışlarında heç bir təəssüb olmaz. Onları maraqlandıran yalnız bir məsələ olar ki, Allahın hüzurunda mən haradayam?!

İnsan yalnız onun etdiklərindən Allahın razı olub-olmadığının nigarançılığını çəkməlidir. Ən böyük insaflılıq göstəricisi budur ki, insan həqiqətin harada olduğunu anlasa, dərhal onu qəbul etsin. Çünki insan o zaman insafsızlıq edir ki, ağlı kənara qoyur, emosiyalarla, nəfslə hərəkət edir. İnsan nəfsin istəklərini əqlin işığından keçirməyərək, aqibəti düşünməyərək hərəkət edəndə vəziyyət xarablaşır. İnsan adi halda, adi durumda təqva yükü ilə davranmasa, insaflı davranışdan uzaq olar. İnsaflı davranış - əslində təqvanın nümunəsidir.

## Gözəl rabitə insaf sayəsində davam edər

İnsaflı davranışın faydaları fövqəl dərəcədə çoxdur. İnsanlararası münasibət baxımından insaf - ən önəmli amildir. İnsaf qəlbləri bir-birinə bağlayır. Əgər bir toplumda, xüsusən də inanclı bir çevrədə qəlblər bir-birinə bağlanmırsa, insaflılıq mövzusunda problem var. Deməli, burada insanların insaflı davranış gözləntiləri yoxdur. Elə ki, insaflı davranış insanların iradəlilik əzmlərinin nəticəsində həyata keçir, o toplumda qəlblər bir-birinə bağlanar. İnsaflılıq insanlar arasında qəlbləri bir-birinə yaxınlaşdırar.

**Həzrət Əli (ə) buyurur:** "Əlaqə telləri insafın olması nəticəsində davam edir". İnsanlar arasında ünsiyyət olar, məhəbbət olar, insaflı davransalar, bu, davamiyyət tapar. Əgər bu münasibətlərdə insafa əhəmiyyət verilməzsə, əlaqə telləri davamlılıq tapa bilməz. Həzrət Əmirəlmöminin (ə) buyurur: "İnsaflı olmaq dostların artmasına səbəb olur".

Əgər insan dostlarının artmasını, insanlarla mehribanlığının möhkəmlənməsini istəyirsə, gərək insaflı davranmağı bacarsın. Əgər insan özünə qıydığını başqasına da qıysa, insaflı davranmış olar. Əgər hətta kimsə ona qarşı insafsız davranırsa, onun da insaflı davranması çox zəruridir. İnancımızın insanlararası müstəvidə davranış modeli bundan ibarətdir. Dinimizin ictimai müstəvidə fərqli yanaşması var, amma insanlararası münasibətdə buna dəvət edir. Xüsusilə bu, ailədaxili münasibətlərə aiddir. Ailədə insaf olmasa, ailə mövcudiyyəti olmaz. Xüsusilə kişilər insaflı davranmasalar, vəziyyət çox çətin olar. Elə vaxt olur kişi qadını anlamalıdır və insaflı davranmalıdır. Elə vəziyyətlər olur ki, qadın kişini anlamalıdır. Bütün bunlar mehribançılığı möhkəmləndirən amillərdir.

## Qurani-Kərim mehribanlıq barədə

İnsanlar arasında münasibətlərdə xüsusi əhəmiyyət verilməli mövzulardan biri də mehribanlıqdır. Mehribanlıq insanlararası münasibətlərdə ən zəruri olan amillərdəndir. Bu, hər bir toplumun ehtiyac duyduğu mövzudur. İnsanlararası münasibətdə, əlaqələrdə mehribançılıq dinimizin ən önəmli xüsusiyyətidir. Qurani-Kərim məntiqində də möminlərin, iman əhlinin xüsusi bir cəhəti kimi vurğulanır. "Fəth" surəsinin 29-cu ayəsində Rəbbimiz buyurur: "Muhəmməd (s) - Allahın peyğəmbəridir. Onunla birgə olanlar kafirlərin qarşısında güclü və sərt, öz aralarında isə mehribandırlar..." Rəbbimiz Peyğəmbərlə (s) olanların, iman gətirənlərin, Peyğəmbərin (s) ümmətinin mühüm xüsusiyyətini bizlərə çatdırır. İmam gətirənlər kafirlərə qarşı sərtdirlər. Əksinə, bir-biriləri ilə mehribandırlar. Çox önəmli bir buyuruşdur. Quranın necə yaşamaq müstəvisində olan çox nurani bir buyuruşudur.

Bizlər Qurani-Kərimin bu buyuruşuna uyğun şəkildə bir-birimizlə davranmalıyıq. İman gətirənlər İslama həqarət edənlərin işindən məmnun olmamalı, onlara mehriban davranmamalıdır. Kim buna dəstək verirsə, bizim onlarla yolumuz birmənalı ayrılır.

Rəbbimiz bizə açıq-aşkar bir yaşayış formulası təqdim edir. Kimlər ki, Peyğəmbərlədirlər (s) - kafirlərlə, xüsusilə də israr edən kafirlərlə sərtdirlər. Bunların üzünə gülməz, qarşısında əyilməzlər. Amma insanlar öz aralarında mehriban olmalıdırlar. Allah etməsin ki, bunun əksi olsun - kafirlərlə, Allahı sevməyənlərlə mehriban davranalar, bir-biriləri ilə isə sərt davranalar. Allah etməsin, insanlar o yerdə ki, haqq gizlədilir, Allah bəyənmədiyi mövzularda dözümlü olalar, amma məişət məsələlərində sərtlik nümayiş etdirələr. Dinimiz İslam belə bir din deyil. İslam əxlaqı, Peyğəmbərimizin (s) əxlaqı tamamilə başqa məsələni bizə nümunə qoyur. Kimlər qırmızı xətti keçər, onlara qarşı sərt olmaq lazımdır. Dinimiz məişət müstəvisində, insanlararası münasibətlərdə xüsusən də möminlərarası münasibətdə mehriban davranışa çağırır. Ailədən başlayaraq, ən böyük münasibətlərə qədər bu formula yaşanmalıdır.

**Əziz İslam Peyğəmbəri (s) buyurur:** "Rəhman Allah qəlbi rəhimli olan insanlara rəhm edər". Allahın mərhəməti, rəhməti qəlbində rəhm və mərhəmət duyğusu, hissi olan insanlara aiddir. Möminlər öz həyatlarında bu duyğunu yaşatsalar, Allahın mərhəməti də onlara aid olar. Rəhman Allah yalnız qəlbi rəhimli olan insanlara Öz xüsusi rəhmətini nəsib edər.

**Həzrət Rəsulallah (s) buyurur:** "Mehribanlıq - bərəkət, kobudluq isə bərəkətsizlik və xəcalətdir". Əgər insan bərəkətli həyat istəyirsə, gərək mehriban davransın. Hansı ailədə xeyir, bərəkət olar? O ailədə ki, orada mehriban davranılar. O mühitdə ki, mehriban davranılar, həmin mühitdə xeyir və bərəkət olar. O toplumda, o coğrafiyada xeyir-bərəkət olar ki, o toplumda münasibətlər mehribançılıq üzərində qurulmuş olsun. Mehribançılıq - xeyir-bərəkət gətirən əsas amillərdəndir. Kobudluq isə bərəkətsizliyin ciddi amillərindən biridir.

**Həzrət Əmirəlmöminin (ə) buyurur:** "Rəhm et ki, sənə də rəhm etsinlər". Əgər insan istəyirsə onunla mülayim davranılsın, istəyirsə onunla mehriban, mərhəmətli davranılsın, özü də bu cür davranmalıdır. Özü elə davranacaqsa, onunla da elə davranılacaq. Həzrət İmam Musa Kazımın (ə) bu anlamda çox incə bir buyuruşu var. Həzrət (ə) buyurur: "Mehribanlıq həyatın yarısıdır". İnsan nələr edir, həyatda nələr varsa, onların yarısı mehribanlıqdır. Əgər insanın yaşamı mehribançılıqla müşayiət olunursa, digər məsələlərin də bərəkəti olur.

**Əziz İslam Peyğəmbəri (s) buyurur:** "Allah-Təala mehribanlığı sevir və onu həyata keçirtməyə kömək edər". Rəbbimiz mehribanlığı sevir. Əgər insan bu cür davranmaq üçün əzmkarlıq göstərsə, mehriban davranmaq üçün çalışarsa, Allah ona kömək göstərər. Allah mehriban davranmağa kömək edər.

**Həzrət Əmirəlmöminin (ə) buyurur:** "Öz ailənin uşaqlarına mehriban ol və ailənin böyüklərinə ehtiram qoy". Dinimiz uşaqlarla mehriban, böyüklərlə ehtiramla davranmağı tövsiyə edir. Bu, İslamın yaşayış məntiqidir. Bunun kökü də mübarək Qurani-Kərimdən gəlir Allahdan istəyimiz budur ki, bizlərə bu böyük lütfü yaşatmağı nəsib etsin. Toplumda bu kimi dəyərlərin inkişaf etdirilməsi hər bir mömin və möminənin bunu öz həyatında yaşatmasından keçir. Toplumda bunun yaşatdırılması mömin ailələrində yaşatdırılmasından başlayır.

**Allahım, bizlərə insanlarla münasibətdə insaflı olmağı nəsib et!**

**Allahım, bizlərə insanlarla münasibətdə mehriban olmağı nəsib et!**

**Allahım, aqibətlərimizi xeyirli et! Amin!**

# Bakı polisi manyakı axtarır

**Bakının Xətai rayonunda qəribə hərəkətlər edərək insanları qorxudan şəxsin axtarışları davam edir. Bu barədə Xətai Rayon Polis İdarəsi 37-ci polis bölməsindən ANS-ə məlumat verilib.**

Verilən məlumata görə, aprelin 15-də A.Qurban küçəsində yaşayan 1989-cu il təvəllüdlü Pərvin Məmmədova bölməyə ərizə ilə müraciət edərək bildirib ki, aprelin 14-də axşam saat 22 radələrində evinə girərkən şoka düşüb.

Qadın evi dağınıq vəziyyətdə görüb. Öncə evə oru girdiyini zənn edərək çıxmaq istəyərkən onu gözlənilməyən qonaq qarşılayıb. Ortaboylu bir nəfər maskalı şəxs sakitcə dayanaraq ona baxırmış.

Qadın bunu görən kimi qorxub və qışqırmağa başlayıb. Maskalı şəxs isə evdən çıxaraq gedib. Qadın bildirib ki, həmin şəxs ona heç nə etməyib. Evdən də heç bir şey oğurlanmayıb. Pullara da əl dəyilməyib.

Xətai Rayon Polis İdarəsində həmin şəxsin tapılması istiqamətində axtarış tədbirləri həyata keçirilir.

# Bakıda dəhşətli qəza: məktəbli oğlan öldü

## Avtomobil 9 yaşlı uşağı vuraraq 15-20 metr irəli atıb

**Bakıda ağır yol nəqliyyat hadisəsi baş verib. Lent.az-ın məlumatına görə, Suraxanı rayonu ərazisində, Hövsan-Türkan yolunda (ABU Petrolun qarşısı) 1988-ci il təvəllüdlü Fərhadov Nurlan Xeyrulla oğlu idarə etdiyi "Toyota" markalı avtomobillə 8-12 yaşlı oğlanı vurub. Sürətlə hərəkət edən avtomobil piyadanı 15-20 metr irəli atıb. Həmin şəxs hadisə yerindəcə keçinib.**

İlkin araşdırmalardan sonra avtomobilin vurub öldürdüyü uşağın 2006-cı il təvəllüdlü Ağayev Elman Süleyman oğlu olduğu müəyyən edilib. O, orta məktəb şagirdi imiş.

Faktla bağlı Suraxanı RPİ-də cinayət işi açılıb, araşdırma aparılır.

# Türmədən çıxıb həmkəndlisini öldürdü

**Bərdə rayon sakini həmkəndlisini qətlə yetirib. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən verilən məlumata görə, aprelin 22-də Bərdə rayonunun Güloğlular kəndindən kənd sakini Ceyhun İbrahimov kəsilmiş-deşilmiş xəsarətlə xəstəxanaya gətirilib və orada ölüb.**

Bərdə Rayon Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətmiş həmkəndlisi, əvvəllər məhkum olunmuş Elsevər Cəfərov tutulub. Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



# Təhsil Nazirliyinin işçisi xidməti maşınla iki piyadanı vurub qaçdı



**Abşeron rayonunun Masazır qəsəbəsində yolu keçmək istəyən ata və onun qızını vuraraq hadisə yerindən qaçan sürücü saxlanılıb. Abşeron Rayon Polis İdarəsindən (RPİ) "Report"a verilən məlumata görə, hadisə zamanı 1989-cu il təvəllüdlü Məmişov Zamin Əli oğlu idarə etdiyi "QAZ 31105" markalı avtomobillə yolu keçən Hüseynov Təyyar Abdul oğlu və onun qızı Abbasova Təzəgül Təyyar qızını vurub. Hadisədən sonra sürücü Z.Məmişov piyadalara yardım göstərmədən ərazidən yayınıb. Yaralı piyadalar isə hadisə şahidləri tərəfindən ağır vəziyyətdə xəstəxanaya çatdırılıb.**

Hadisədən bir neçə gün sonra qəza törədən Z.Məmişov könüllü olaraq polisə gələrək təslim olub və etdiyi qəzanı etiraf edib. Sürücü qəzadan sonra piyadalara yardım göstərmədən qaçmasını hadisə zamanı qorxması ilə əlaqələndirib. Qəza ilə bağlı Abşeron RPİ-də başlanan araşdırmalar davam etdirilir.

Qeyd edək ki, hadisəni törədən sürücü Z.Məmişov Təhsil Nazirliyində sürücü işləyir. O, qəza zamanı piyadaları nazirliyə məxsus xidməti avtomobillə vurub.

**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Elan**

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**

**Əlaqə nömrəsi: +79283706928**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34



# 120 manat rüşvətə görə tutulan müdirin məhkəməsi başladı

**Bakı Ağır Cinayətlər Məhkəməsində rüşvət almaqda təqsirli bilinən Bakı Kompüter Kollecinin şöbə müdiri Şləddin Səfərovun cinayət işi üzrə məhkəmə prosesinə start verilib. Lent.az-ın məlumatına görə, hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Təqsirləndirilən şəxsin vəkili vəsatətlə çıxış edib: "İbtidai istintaq zamanı kollecdə olan sinif nümayəndəsi ifadə versə də, şahidlər siyahıya daxil edilməyib. Məhkəmədən onun əlavə şahid kimi siyahıya salınmasını xahiş edirik".**

Məhkəmə müşavirəyə gedərək qərar qəbul edib. Hakimlər kollegiyasının qərarı ilə vəsatət təmin olunub və məhkəmə baxışı aprelin 30-na təyin edilib.

Qeyd edək ki, Baş Prokurorluq rüşvət alan kollec müəllimi ilə bağlı məlumat yayıb. Prokurorluqdan verilən məlumata görə, Bakı Kompüter Kollecinin tələbəsinin həmin kollecin şöbə müdiri Ələddin Səfərovun qanunsuz hərəkətlərə yol verməsi barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş müraciəti araşdırılıb.

Kollecin Proqramlaşdırma və servis xidmətinin şöbə müdiri Ə.Səfərovun qış imtahan sessiyası zamanı imtahanlardan müvəffəq qiymətlər alması üçün kollecin tələbəsindən 150 manat məbləğində rüşvət tələb etməklə 27 yanvar 2015-ci il tarixdə 120 manat məbləğində rüşvəti xidməti otağında alarkən cinayət başında yaxalanması faktına görə Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsi ilə cinayət işi başlanıb.

İstintaq-əməliyyat tədbirləri zamanı Ə.Səfərovun üzərindən müxtəlif əsginazlarla 120 manat nağd pul, habelə onun və kollecin digər vəzifəli şəxslərinin xidməti otaqlarına baxış zamanı kollecdə imtahan sessiyaları zamanı qanun pozuntularına yol verilməsinə kifayət qədər şübhələr yaradan sənədlər, o cümlədən tələbələrə məxsus qiymət kitabçaları, tələbə biletləri, qeydiyyat kitabçaları və istintaq üçün əhəmiyyət kəsb edən digər sənədlər aşkar edilərək götürülüb.

Ə.Səfərov Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək məhkəmənin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilib.

Hazırda kollecdə sistemli şəkildə rüşvət hallarının baş verməsinə şübhələr üçün əsaslar olduğundan cinayətin digər iştirakçılarının müəyyən edilərək istintaqa cəlb edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.






# YENİ MÜSAVAT

## Son səhifə

*N 87 (6115) 24 aprel 2015*


# 3819 kilometrlik rekord

Danimarkadakı bir ambulans firması Türkiyənin Antalya şəhərindəki xəstəni Danimarkaya apararaq "Ginnesin Rekordlar kitabı"na düşüb. Danimarkalı ambulans firması xəstəni Danimarkanın Herning şəhərinə apararaq 3819 kilometr məsafədə yol qət edib. Beləliklə, dünyanın ən uzun yol gedən ambulansı olub. Şirkətin müdiri Henrik Haçel Danimarkanın "BT" qəzetinə verilən açıqlamada bunları deyib: "Xəstəni gətirmək bizə başqa dəyərlər qazandırdı. Könüllü olaraq xəstəyə yardım etdik. Bu addımı həm ona kömək etmək, həm macəra, həm də rekord üçün etdik. 49 saatlıq səyahət zamanı xəstənin yanında bir anestezioloq, bir tibb bacısı, bir həkim və dörd könüllü olub. Xəstəni gətirən ambulans işçilərinə "fantastik dördlük" adı verilib".





## Məhkəmə onlara da hüquq verdi

Amerikanın Nyu-York şəhərində keçirilən məhkəmədə iki şimpanzenin insanlarla eyni haqlara sahib olduğuna qərar verilib. İddialara görə, Hərkül və Leo adlı iki şimpanze cinsli meymun araşdırmalar üçün Stony Brook Universitetində saxlanılır. Bir qrup heyvan haqları qoruyucusunun məhkəməyə müraciətindən sonra Hərkül və Leonun azadlığa qovuşması gözlənilir. Amerika tarixində ilk dəfə bir heyvanın insan kimi müdafiə edildiyi, insan haqlarının heyvanlara da aid edildiyi deyilir.



## Kompüterini güllələdi

Amerika mediası tez-tez xarab olan kompüterini güllələyən adamdan bəhs edir. NTV-nin xəbərinə görə, Amerikanın Kolorado ştatında yaşayan Lukas Kinç adlı adamın kompüteri ilə bağlı problem polisi hərəkətə keçirib. Davamlı xarab olan kompüterini boş bir əraziyə aparan 37 yaşlı kişi silahı ilə atəş açıb. Silah səslərini eşidərək hadisə yerinə gələn polislər amerikalının təslim olarkən günahının nə olduğunu bilmədiyini deyib.

# Qızların ən çox danışdığı yalanlar...



Çox zaman biz qarşımızdakı insanı incitməmək üçün ona bəzi yalanlar deməyə məcbur oluruq. Bəzən isə sadəcə rəqabət apardığımız üçün mənasız yalanlar danışırıq, xüsusilə də qadınlar bu sahədə daha çox fəaldırlar. Kişilərin qadınlara, qadınların kişilərə danışdığı yalanlar xaricində rəfiqələrin də bir-birinə danışdığı yalanlar olur. Bu da qadınların bir-biri ilə yarışa girib rəqabət aparması ilə bağlı olur.

"Daily Mail" qəzeti qadınların bir-birinə danışdığı ən çox yalanların siyahısını açıqlayıb.

1. Yeni saç düzümün əla görünür.
2. Sənin nikah şahidin olmaq mənim üçün qürurvericidir.
3. Nə danışırsan, sənin ayaqların heç də kök deyil.
4. Onsuz (sevgilinsiz) sən daha yaxşısan.
5. Sən məni nə hesab edirsən, əlbəttə, heç kimə deməyəcəm.
6. Bu piroqlar çox dadlı olub, reseptini mənə də ver.
7. Sən yaşından kiçik görünürsən.
8. Xeyr, mən heç vaxt nəyisə şişirtmirəm.
9. Anana oxşamırsan.
10. Sevgilinin xasiyyətini bəyəndim, həm də yaraşıqlıdır.
11. Sənin kimi bədənim olsaydı, bu paltarı geyinməkdə sənin qədər fikirləşməzdim.
12. Mən də eyni hərəkəti edərdim.
13. Deyəsən arıqlayıbsan.
14. Mən dəli deyiləm, nə dediyimi yaxşı bilirəm.
15. Nə gözəl sırğaların var.



## Meymun dişləməsinə rekord cəza

Hindistanda bir məhkəmə sürətlə artan meymun hücumlarının qarşısını ala bilmədiyi üçün meymunlar tərəfindən dişlənilən hər kəsə 187 rupi təzminat ödənilməsi haqda qərar verib. Ölkədə yaşayan bir vətəndaşın orta hesabla 24 aylıq maaşı qədər olan təzminat meymun sahiblərinin narazılığına səbəb olub. Hindistanda ən çox hücuma məruz qalanlar meymunlara dərman verənlər və onları tərbiyə etmək istəyənlərdir. 2007-ci ildə Yeni Dehlinin bələdiyyə başçısının müavini meymun hücumu zamanı balkondan düşərək ölmüşdü.




**QOÇ** - İşgüzar və riskli sövdələşmələrdə iştirakınızı təxirə salmağa çalışın. Çünki ixtiyarınızda olan bu təqvim deyilən məsələlər üçün önəmli deyil. Gün ərzində dostlarınızla bir yerdə olun.

**BUĞA** - Perspektivlərinizi reallaşdırmaq istiqamətində tənbəllik edirsiniz. Belə ki, sizə lazım olan bütün gedişləri bildiyiniz halda fəaliyyət göstərmirsiniz. Əzmkarlığınızı artırın.

**ƏKİZLƏR** - Müntəzəm surətdə təmasda olduğunuz adamların obyektiv rəyləri ilə hesablaşmağa çalışın. Məsləhət almaq ayıb iş deyil. Qazanmaq üçün çoxsaylı şanslarınız da mümkündür.

**XƏRÇƏNG** - Səhər saatlarında qeyri-ciddi adamların xoşagəlməz rəftarı ilə üzləşə bilərsiniz. Çalışın ki, belə amillər ovqatınızı korlamasın. Nahardan sonra qonaq getməyə dəyər.

**ŞİR** - Bu təqvimdə bəxtinizə fəaliyyət və yeni əlaqələr üçün ən uğurlu məqamlar düşəcək. Odur ki, mövcud potensialınızdan maksimum bəhrələnin. Müqəddəs yerləri ziyarət etmək yaxşı olardı.

**QIZ** - Günün ümumi mənzərəsi gərgin olsa da, bunun qarşısını ala bilərsiniz. İlk növbədə səbr nümayiş etdirin. Günün ikinci yarısında isə yalnız istirahət və gəzintilərə meyl edin.

**TƏRƏZİ** - İxtiyarınıza elə bir gün verilib ki, yalnız öz gücünüzə güvənməlisiniz. Kənar müdaxilə və məsləhətlər o qədər də önəmli deyil. Günün ikinci yarısını bütünlüklə sevgiyə həsr edin.

**ƏQRƏB** - Başınızdakı yeni ideyaları reallaşdırmağı bacarsanız, uğurlarınız daha da yaxınlaşacaq. Yeganə narahatçılığınız səhhətlə bağlı ola bilər. Büdcənizi boş məsrəflərə xərcləməyin.

**OXATAN** - Çoxdan bəri donub qalmış planlarınızı dirçəltmək üçün bəzi şəxslərə müraciət etməyiniz böyük səmərə verə bilər. Saat 15-dən sonra iştirak etdiyiniz bütün görüşlər xeyrinizədir.

**OĞLAQ** - Maraqlı görüşlər yolunuzu gözləyir. Güman ki, sizi böhranlı vəziyyətdən çıxara bilən insanlarla qarşılaşacaqsınız. Amma belə məqamlarda təmkinli olun ki, sonda gülə biləsiniz.

**SUTÖKƏN** - Məqsədlərinizi həyata keçirməkdə bəzi maneələrlə üzləşsəniz də, günün ümumi mənzərəsi istəyinizə uyğun tərzdə canlanacaq. Büdcənizdə artım da mümkündür, amma səhhətinizi qorumalısınız.

**BALIQLAR** - Şəxsi işlərinizdə böyük dönüş gözlənilir. Bu dəyişkən ərəfədə görəcəyiniz işləri reallığa yaxınlaşdırmaq üçün müttəfiqlərinizlə əlaqələri dərinləşdirməlisiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 3 qardaş analarını diri-diri yedi



Filippində dəhşətli cinayət hadisəsi baş verib. Ölkənin Ampatuan şəhərində 3 qardaş öz analarını öldürüb. Gözü dönmüş qardaşlar analarının qanını içiblər və orqanlarını yeyiblər. 56 yaşındakı qadının cəsədi qonşuların polisə xəbər verməsindən sonra aşkarlanıb. Polisin apardığı araşdırmalardan sonra məlum olub ki, qadının bəzi orqanları yoxdur və cəsəd qansızdır. İstintaqa cəlb olunan 35 yaşındakı Dante, 21 yaşındakı Paroy və 18 yaşındakı kiçik qardaş İbrahim analarını öldürdüklərini etiraf etmirlər. Qardaşlar yalnız şər ruhun gətirdiyi xəstəliyi uzaqlaşdırmağa çalışdıqlarını söyləyirlər.

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.